

# Musiqi

4

LAYİHƏ

DƏRSLİK

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



LAYİHƏ

**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

OQTAY RƏCƏBOV
NAZİM KAZIMOV
OFELİYA İMANOVA

# Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün Musiqi fənni üzrə DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
tahsil_az@yahoo.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

Təhsil

# MÜNDƏRİCAT

## I BÖLMƏ. AZƏRBAYCAN XALQ MUSİQİSİ


1. Azərbaycan xalq musiqisi janrları 6
2. Azərbaycan xalq mahnıları 8
3. Azərbaycan xalq rəqsləri 10
4. Azərbaycan xalq rəqsləri 12
5. Azərbaycan aşıq musiqisi 14
6. Azərbaycan aşıq musiqisi 16
7. Azərbaycan klassik muğamları 18
8-9. Zərbi-muğamlar 20


## II BÖLMƏ. AZƏRBAYCAN VƏ DÜNYA XALQLARININ MUSİQİSİ


10. Niyazinin «Qaytağı» simfonik əsəri və «Ləzginka» ləzgi xalq rəqsi 24
11. Azərbaycan xalq musiqisi rus bəstəkarlarının yaradıcılığında 26
12. Azərbaycan bəstəkarlarının yaradıcılığında ərəb xalq musiqisi 28
13. Azərbaycan bəstəkarının yaradıcılığında Orta Asiya səhralarının təsviri 30
14. Azərbaycan bəstəkarı və Çin ladı 32
15-16. 6/8 metrik ölçüsü və Şərq musiqisi 34


## III BÖLMƏ. DÜNYA XALQLARININ MUSİQİSİ ARASINDA KEÇİLMƏZ SƏRHƏDLƏR YOXDUR


17. İohann Sebastyan Bax və Azərbaycan muğamı «Bayatı-Şiraz» 36
18. Rus bəstəkarı Dmitri Kabalevski və yapon xalq mahnısı 38
19. Rus bəstəkarı Nikolay Rimski-Korsakov və Şərq musiqisi 40
20. Mixail Qlinka və ispan musiqisi 42
21. Vals Avropa və Azərbaycan musiqisində 44
22. Marş Avropa və Azərbaycan musiqisində 46
23. Qara Qarayev və Afrika qaradərililərinin musiqisi 48
24. Pyotr İliç Çaykovski və dünya xalqlarının musiqisi 50
25. Novruz bayramı və musiqi 52


## IV BÖLMƏ. BƏSTƏKAR, İFAÇI, DİNLƏYİCİ


26. Bəstəkar və musiqi 56
27. Bəstəkar və mahnı 58
28. Bəstəkar və romans 59
29. Bəstəkar və operetta 60
30. Bəstəkar və opera 62
31. Bəstəkar və simfoniya 64
32. Bəstəkar və balet 66
33. Bəstəkar və xalq musiqisi 68
34. Keçilmiş mövzular üzrə təkrar 70


LAYİHƏ

# I bölmə



# AZƏRBAYCAN XALQ MUSİQİSİ

LAYİHƏ

# AZƏRBAYCAN XALQ MUSİQİSİ JANRLARI

Çox qədim tarixə malik Azərbaycan xalq musiqisi, əsasən, 4 janrdan ibarətdir.






Xalqımız əsrlər boyu gözəl mahnılar yaradıb. Bu mahnılar xalq mahnısı adını alıb və sevilib. Xalq mahnıları əmək, mərasim, məişət və tarixi mövzuları əhatə edib. Onlar xalq musiqiçiləri – xanəndələr, xalq musiqi alətləri ifaçıları tərəfindən bəstələnib, el şənliklərində ifa olunub. Beləliklə, eldən-elə yayılıb və bu günümüzə qədər gəlib çatıb.

Xalq tərəfindən yaradılan «Bağçada gül» əmək mahnısıdır. Bu mahnıda pambıq tarlasında işləyən pambıqçıların əməyi tərənnüm olunur.

Mahnı öyrənək

## BAĞÇADA GÜL
**(Azərbaycan xalq mahnısı)**

I

Şəfəq saçır gün bizə,
Bəh-bəh, nə gözəl olur!
Çıxaq tarlaya, düzə,
Bəh-bəh, nə gözəl olur!
Günəşli al səhərlə
Gəlin duraq üz-üzə.

**Nəqərat:**
Bağçalar gül açır,
Bülbüllər dil açır.
Yer geyir al-əlvan
Bəh-bəh, nə gözəl olur!



LAYİHƏ



| II | III |
|---|---|
| Bütün ellər oyansın,<br>Bəh-bəh, nə gözəl olur!<br>Çöllər nura boyansın,<br>Bəh-bəh, nə gözəl olur!<br>«Ağ qızıl» tayaları<br>Buludlara dayansın.<br><br>**Nəqərat:** | Tarlalarda biz gərək,<br>Bəh-bəh, nə gözəl olur!<br>Pambıq dərək, gül dərək,<br>Bəh-bəh, nə gözəl olur!<br>Muğanın sərvətindən<br>Dost ellərə göndərək.<br><br>**Nəqərat:** |

Mahnı dinləyək

## LAYLA

**(Azərbaycan xalq mahnısı)**

İlk dinlədiyimiz mahnı ana laylasıdır. Layla mətni bayatı şəklində olur. Bəzən eyni bir bayatı müxtəlif melodiyalar altında oxunur. Amma onların hamısı çox həzin və sevimli olur. Ən çox eşitdiyimiz «Layla»nın sözləri belədir:

Layla dedim, yatasan,  
Qızılgülə batasan.  
Qızılgülün içində,  
Şirin yuxu tapasan.

## Musiqi lüğəti

**Layla** – beşik nəğməsi  
**Janr** – musiqi əsərinin növü



## SUAL VƏ TAPŞIRIQLAR

1. Musiqidə janr nədir?
2. Bunlardan hansı xalq musiqisi janrı deyil?
a) xalq mahnısı b) aşıq musiqisi c) rep ç) klassik muğam
3. Teymur Elçinin «Analar və laylalar» əsəri əsasında çəkilən eyniadlı cizgi filminə baxın.
a) Cizgi filmində hansı canlılar balasına layla deyir?
b) Laylalarda anaların arzusu nədir?

YouTube üzərindən axtarış üçün açar sözlər: cizgi filmi, analar və laylalar.

LAYİHƏ

# AZƏRBAYCAN XALQ MAHNILARI

Azərbaycan xalq mahnılarının məzmunu çox zəngindir. Bu mahnılar xalq qəhrəmanlarına, vətənin flora və faunasına, şəhər və kəndlərinə həsr olunub. «Ninni», «Beşik başında», «Layla» kimi uşaq xalq mahnıları da var. II sinifdə onlardan birini – «Tutu nənəm» Azərbaycan xalq mahnısını öyrənmişik.


Möminə Xatun türbəsi


Naxçıvan Muxtar Respublikası

Mahnı öyrənək

## NAXÇIVAN

*Musiqisi Məmməd Cavadovun, sözləri Hüseyn Əzimindir.*

I

Mən səni vəsf edim bir canan kimi,
Sarılım boynuna mehriban kimi,
Göyündə ulduzlar sayrışan kimi.

**Nəqərat:**
Ey könül mülkünün barı
Naxçıvan, a gülüm,
Ellərin sevgili yarı Naxçıvan.

II

Qoynuna gülüzlü şux nigar gəlir,
Müjdə ver bülbülə, ilk bahar gəlir,
Qızlar bulağına nazlı yar gəlir.

**Nəqərat:**
Ey könül mülkünün barı
Naxçıvan, a gülüm,
Ellərin sevgili yarı Naxçıvan.

III

Səndə tarixlərin çox nişanı var,
Hər daşın köksündə ox nişanı var,
İndi nə xanı var, nə sultanı var.

**Nəqərat:**
Ey könül mülkünün barı
Naxçıvan, a gülüm,
Ellərin sevgili yarı Naxçıvan.


İlandağ (Naxçıvan)

LAYİHƏ

Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Naxçıvan Böyük İpək Yolunun üzərində yerləşir. El arasında ona «Şərqin qapısı» deyilir. Bu şəhər qədim tarixi abidələri ilə məşhurdur. Naxçıvanda «Badamlı» və «Sirab» kimi mineral su yataqları var. Bu yataqlar Naxçıvanın milli sərvəti hesab edilir.



Mahnı öyrənək

## PİYADA KOROĞLU
**(Azərbaycan xalq mahnısı)**

I

Uca-uca dağlar başı,
Qarlı da olur, qarsız da olur.
Cəhd elə bir işdə tanın,
Sənli də olur, sənsiz də olur.

II

Koroğlunun atı gərək,
Atlı da olur, atsız da olur.
Bir igidin zatı gərək,
Varlı da olur, varsız da olur.

## Musiqi lüğəti

**Melizm** – melodiyanı gözəlləşdirən səs bəzəyidir.

«Piyada Koroğlu» Azərbaycan xalq mahnısını görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Tofiq Quliyev nota köçürüb. Mahnı «Koroğlu» dastanının baş qəhrəmanı Koroğluya həsr olunub.

Mahnı cəld tempdə, 3/4 xanə ölçüsündədir. Aşıq musiqisinə çox yaxın olan «Piyada Koroğlu» mahnısında melizmin bir növü olan forşlaqlardan istifadə olunmuşdur.

## SUAL VƏ TAPŞIRIQLAR

1. Ən çox sevdiyiniz xalq mahnısı hansıdır?
2. Aşağıdakı xalq mahnılarını məzmununa görə qruplaşdır:
a) «Qaladan qalaya» b) «Qubanın ağ alması» c) «Piyada Koroğlu» ç) «Qaçaq Nəbi» d) «Şuşanın dağları»

| Xalq qəhrəmanlarına həsr olunub | Şəhər və kəndlərə həsr olunub |
|---|---|
| | |

3. «Piyada Koroğlu» mahnısının məzmunu nədən ibarətdir?
4. Necə düşünürsünüz, nəyə görə xalq Koroğluya mahnı həsr edib?
5. Qəhrəmanlıq mövzusunda olan mahnılar haqqında şifahi təqdimat hazırlayın.

LAYİHƏ

# AZƏRBAYCAN XALQ RƏQSLƏRİ



«Qaytağı» rəqsi

Azərbaycan xalq rəqsləri çox qədim tarixə malikdir. Onların kökü eramızdan əvvələ gedib çıxır. Xalqımıza məxsus olan qədim «Bilqamıs» və «Dədə Qorqud» dastanlarında rəqslər haqqında məlumatlara rast gəlinir.

Azərbaycan rəqsləri quş uçuşunu xatırladır. Əvvəl bir neçə coşqun, sonra isə incə və zərif hərəkətlər ifa edilir.

Azərbaycan qadın və kişi rəqsləri bir-birindən fərqlənir. Keçmişdə Azərbaycan qadınları uzun ətəkli geyimdə gəzdikləri üçün qadın rəqslərində əsas hərəkətlər bədənin yuxarı hissələrinə – qollara verilir. Kişi rəqslərində isə, əksinə, ayaqların cəld hərəkətinə xüsusi diqqət yetirilir.



«Mirzəyi» rəqsi



«Yallı» rəqsi

LAYİHƏ

Musiqi dinləyək

## «UZUNDƏRƏ» RƏQSİNİN MELODİYASI

«Uzundərə» Azərbaycan xalq rəqsi Qarabağda, Ağdam rayonu yaxınlığındakı Uzundərə adlanan bir əraziyə həsr olunub. Dahi bəstəkar Üzeyir Hacıbəyli «Məşədi İbad» operettasında «Uzundərə» rəqsinin melodiyasını Məşədi İbadın mahnısında istifadə etmişdir. Xanə ölçüsü 6/8 olan «Uzundərə» rəqsinin melodiyası mülayim və zərifdir. Ümumiyyətlə, Azərbaycan xalq rəqslərinin əksəriyyətinin metrik ölçüsü 6/8-dır.

«Uzundərə» rəqsi ilə «Məşədi İbadın mahnısı» arasında oxşar və fərqli cəhətlər:

| | Fərqli | Oxşar | Fərqli | |
|---|---|---|---|---|
| «Uzundərə» rəqsi | 1. Azərbaycan xalq çalğı alətləri müşayiət edir.<br>2. Melodiya xalq çalğı alətləri vasitəsilə səsləndirilir.<br>3. Rəqs etmək üçündür. | MELODİYA | 1. Simfonik orkestr müşayiət edir.<br>2. Melodiya vokal ifaçı vasitəsilə səsləndirilir.<br>3. Oxumaq üçündür. | «Məşədi İbadın mahnısı» |

Dahi bəstəkar Üzeyir Hacıbəyli yaradıcılığında xalq rəqslərindən və mahnılarından geniş istifadə etmişdir. Onun «Məşədi İbad» operettasında «Rüstəm bəylə Məşədi İbadın dueti» «Darçını» Azərbaycan xalq rəqsinin melodiyası üzərində qurulub. Bu rəqsin şən və oynaq xarakteri var, 6/8 xanə ölçüsünə malikdir.

### Musiqi lüğəti

**Operetta** – musiqili səhnə əsəri
**Duet** – iki nəfərin ifası

### SUAL VƏ TAPŞIRIQLAR

1. «Uzundərə» rəqsi Azərbaycanın hansı bölgəsində yaranmışdır?
2. Üzeyir Hacıbəyli «Məşədi İbad» operettasında hansı rəqslərin melodiyasından istifadə edib?
a) «Uzundərə», «Darçını» b) «Nəlbəki», «Mirzeyi» c) «Qaytağı», «Tərəkəmə»
3. «Uzundərə» xalq rəqsi və «Məşədi İbadın mahnısı»nın oxşar və fərqli cəhətləri hansılardır?
4. Oxşar melodiyalı «Uzundərə» rəqsi ilə «Məşədi İbadın mahnısı»nın müşayiət fərqi nədir?

LAYİHƏ

# AZƏRBAYCAN XALQ RƏQSLƏRİ

Azərbaycan xalq rəqsləri 6/8, 3/8 və 2/4 xanə ölçülərinə əsaslanır. Azərbaycan bəstəkarları da bu ölçülərdə, xüsusilə də 6/8 xanə ölçüsündə mahnılar yazmışlar. Belə mahnılardan biri bəstəkar Qəmbər Hüseynlinin şən xarakterli «Məktəbə» mahnısıdır.


Qəmbər Hüseynli

Bütün dünyada «Cücələrim» mahnısının müəllifi kimi tanınan məşhur bəstəkar Qəmbər Hüseynli 1916-cı ildə Gəncə şəhərində anadan olmuşdur. O, ilk musiqi təhsilini Gəncədə almışdır. Qəmbər Hüseynli xalq çalğı alətləri üçün çoxsaylı əsərlər yazmışdır. O, uşaqlar üçün «Cücələrim», «İdmançılar marşı», «Məktəbə» və s. kimi mahnılar bəstələmişdir.


Nəriman Həsənzadə

Mahnı öyrənək

## MƏKTƏBƏ

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Nəriman Həsənzadənindir.*

Gəlin, ay uşaqlar, gəlin həvəslə,
Nəğmələr oxuyaq biz yeni səslə.
Çağırır bu çöllər, bu düzlər bizi,
Dinləsin gecələr, gündüzlər bizi.

Qayada şənlikdir, sahildə iz var,
Gör bir harda bizim düşərgəmiz var.
Kölgədə dincəlib, gündə yanmışıq,
Çadırlar boyunca sıralanmışıq.

Açıb doğma məktəb qapılarını,
Zəng vurub səsləyir öz baharını.
Gəlirik, gəlirik, ay ana məktəb,
Biz də darıxmışıq qoynuna, məktəb!



6/8 ölçüsünə dirijorluq edək:




6/8 xanə ölçüsündə xanə daxilinə 6 səkkizlik not yerləşir.

LAYİHƏ

Azərbaycan xalq rəqslərinin xarakteri bir-birinə çox yaxındır. Bu rəqslər ifa tərzinə görə fərqlənir.

| Rəqsin adı | Rəqsin xarakteri |
|---|---|
| «Qaytağı» | Cəld templi kişi rəqsidir. |
| «Mirzəyi» | Təntənəli şənliklərdə əldə dəsmal tutmaqla kişilər və qadınlar tərəfindən ifa edilir. |
| «Tərəkəmə» | Qədim köçəri rəqsidir. Tək qadın və ya kişi, yaxud qadın və kişi tərəfindən birgə ifa olunur. |
| «Ceyranbala» | Mülayim rəqsdir. Ceyranın hərəkətlərini təsvir edir. Həm kişilər, həm də qadınlar tərəfindən ifa olunur. |
| «Yallı» | Qrup halında ifa olunan rəqsdir. Rəqs dövrə boyu ifa edilir. |
| «Cəngi» | Qrup halında ifa edilən cəngavərlik rəqsidir. |

Musiqi dinləyək

## YALLI

«Yallı» rəqsi Azərbaycanda çox geniş yayılmışdır. «Yallı» müxtəlif variantlarda mövcuddur. «Yallı»lar ayrılıqda kişilər, yaxud qadınlar tərəfindən və birgə şəkildə ifa olunur. Adətən, iki və ya üç «Yallı» rəqsi birləşdirilərək ifa olunur.

«Yallı» rəqsini ifa edən qrupun önündə gedən rəqqas yallıbaşı adlanır.



«Yallı» rəqsi

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR

1. Hansı kişi rəqslərini tanıyırsınız?
2. Hansı qadın rəqslərini tanıyırsınız?
3. Hansı kütləvi rəqsləri tanıyırsınız?
4. Hansı cəngavərlik rəqslərini tanıyırsınız?
5. Hərbi-vətənpərvərlik rəqsləri haqqında fikirlərinizi söyləyin.

# AZƏRBAYCAN AŞIQ MUSİQİSİ



Aşıq – «eşq» sözündən yaranmışdır. Mənası incəsənətə vurğun olmaq deməkdir. Qədim dövrlərdə və orta əsrlərdə aşıqları «ozan», «varsaq», «dədə» də adlandırırdılar.

Ozanlar haqqında məlumat qədim xalq dastanı «Dədə Qorqud»da verilir. On iki boydan ibarət olan «Dədə Qorqud»da hər boyun sonunda Dədə Qorqud qopuz çalıb-oxuyur və xeyir-dua verib dastanı tamamlayır.





Mahnı öyrənək

## YAŞA, AZƏRBAYCAN

*Musiqisi Səid Rüstəmovun, sözləri Səməd Vurğunundur.*

Çox keçmişəm bu dağlardan,
Durnagözlü bulaqlardan,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

**Nəqərat:**
Yaşa, yaşa, Azərbaycan,
Ay anam, Azərbaycan.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən.
Anam, doğma Vətənimsən,
Azərbaycan, Azərbaycan!

**Nəqərat:**
Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Oğlun, qızın bəxtiyardır,
Azərbaycan, Azərbaycan!

LAYİHƏ

**Sol majorda, 6/8 xanə ölçüsündə olan bu mahnı şən xarakterlidir.**




Musiqi dinləyək

## AŞIQSAYAĞI

«Aşıqsayağı» Azərbaycanın musiqi tarixində skripka, violonçel və fortepiano kimi Avropa alətlərindən ibarət olan üçlük (trio) üçün yazılan ilk musiqi nümunəsidir. Dahi bəstəkar Üzeyir Hacıbəyli «Aşıqsayağı»da aşıq musiqisi ritmlərindən məharətlə istifadə etmişdir. Milli musiqimizdə xanəndə, tar və kamançadan ibarət trio (üçlük) da mövcuddur.



### Musiqi lüğəti

**Avropa triosu** – skripka, violonçel və fortepianodan ibarət musiqi üçlüyü
**Azərbaycan triosu** – xanəndə, tar və kamançadan ibarət musiqi üçlüyü



### SUAL VƏ TAPŞIRIQLAR

1. Aşıqlar hansı musiqi alətində ifa edirlər?
2. «Yaşa, Azərbaycan» mahnısının xarakteri necədir?
3. Trio nədir?
4. Aşıq Pənahın ifasında «Ana Kürüm» aşıq mahnısını dinləyin. Aşıq Kür çayının ona doğma olduğunu hansı sözlərlə ifadə edir?

YouTube üzərindən axtarış üçün açar sözlər: aşıq musiqisi, Aşıq Pənah, Ana Kürüm

LAYİHƏ

# AZƏRBAYCAN AŞIQ MUSİQİSİ

XVIII – XIX əsrlərdə Azərbaycanda aşıq sənəti sürətlə inkişaf etməyə başlayır. Sonrakı dövrlərdə Aşıq Ələsgər və onun oğlu Aşıq Talıb, Aşıq Mirzə Bayramov, Aşıq İslam Yusifov, Aşıq Şəmşir, Aşıq Sadıq, Aşıq Əmrah xalq arasında tanınır. Bu aşıqların ifa etdiyi dastanlar əsasında XX əsrin əvvəllərində «Aşıq Qərib», «Əsli və Kərəm» kimi milli operalar yazılır. Gürcüstanda «Aşıq Qərib» dastanının motivləri əsasında eyniadlı bədii film çəkilir. Filmin musiqisi bəstəkar Cavanşir Quliyevə məxsusdur.

Aşıq Ələsgər



Mahnı öyrənək

## LAÇINI

**(Azərbaycan aşıq mahnısı)**

*Musiqisi Aşıq Hüseyn Saraclının,*
*sözləri Səməd Vurğunundur.*

I

Namərd ilə dost olmayın, (2)
Bu dünyada, bu dünyada. (2)
Həqiqəti unutmayın, (2)
Bu dünyada, bu dünyada. (2)

II

Bağçalarda barın ola,
Alma, heyva, narın ola,
Bir vəfalı yarın ola, (2)
Bu dünyada, bu dünyada. (2)



LAYİHƏ

«Laçını» aşıq mahnısı mi major tonallığında, 3/4 xanə ölçüsündə, aramlı tempdə səslənir. Yaradıcılıq xüsusiyyətlərinə görə aşıqlar yaradıcı və ifaçı aşıq adı alır:

| | |
|---|---|
| Yaradıcı aşıq | Şeir, dastan söyləyən, onları ifa edən oxuyan, çalan, rəqs edən |
| İfaçı aşıq | Çalan, oxuyan və rəqs edən |

Bu keyfiyyətlərin hamısına malik olan aşığa isə **ustad aşıq** deyilir.

Musiqi dinləyək


Qara Qarayev

## QARA QARAYEVİN III SİMFONİYASINDAN BİR PARÇA

Böyük Azərbaycan bəstəkarı, Xalq artisti Qara Qarayev «Yeddi gözəl», «İldırımlı yollarla» baletlərinin, «Vətən» operasının, «Qaskoniyalı gənc» operettasının, müxtəlif filmlərə bəstələnmiş musiqi əsərlərinin, fortepiano üçün əsərlərin, 3 simfoniyanın, o cümlədən uşaq mahnılarının müəllifidir. O, III simfoniyasının 2-ci hissəsində aşıq musiqisi ritmlərindən istifadə edib.

## Musiqi lüğəti

**Dastan** – şifahi xalq ədəbiyyatının epik janrları arasında həcmcə ən böyük əsər
**Saz** – mizrabla çalınan qədim Azərbaycan simli xalq çalğı aləti

## SUAL VƏ TAPŞIRIQLAR

1. Hansı aşıqları tanıyırsınız?
2. Hansı bəstəkar öz simfoniyasında aşıq ritmlərindən istifadə etmişdir?
3. «Laçını» aşıq mahnısının sözləri nəyi tövsiyə edir?
4. Hansı ölkədə «Aşıq Qərib» dastanı əsasında bədii film çəkilib?
a) Özbəkistan b) Gürcüstan c) Türkmənistan
5. Ustad aşıqlar haqqında şifahi təqdimat hazırlayın.

LAYİHƏ

# AZƏRBAYCAN KLASSİK MUĞAMLARI



Muğam – xalq arasında şifahi şəkildə yayılaraq bu günə kimi gələn musiqi janrıdır. Muğamlar iki cür olur: muğam dəsgahları, zərbi-muğamlar.

Yeddi əsas klassik muğam var: «Rast», «Şur», «Segah», «Bayatı-Şiraz», «Çahargah», «Şüştər», «Hümayun». Muğam dəsgahı çoxhissəli vokal-instrumental musiqi əsəridir. Muğam – instrumental giriş olan dəraməddən (bərdaşt-dan), bir-biri ilə təzadlı improvizə xarakterli vokal-instrumental şöbələrdən, təsnif və rənglərdən ibarətdir.

Təsnif – mahnı, rəng – rəqs xarakterli musiqi nümunəsidir. Muğamı xanəndələr oxuyur, onları tar və kamançada musiqiçilər müşayiət edir. Muğam oxumaq üçün qəzəllərdən istifadə olunur.

Azərbaycan xalq çalğı alətlərində ifa edilən muğamlar instrumental muğamlar adlanır.

Musiqi dinləyək

## «ŞUR» MUĞAMINDAN «HİCAZ» TƏSNİFİ

İmprovizə xarakterli muğamlar Nil çayından (Misir) Qanq çayına (Hindistan) qədər olan ərazidə müxtəlif adlar altında yayılmışdır.



Təqsim (Misir)



Makam (Ərəbistan, Türkiyə)



Dəsgah (İran)



Muğam (Azərbaycan)



Mukam (türkmən, uyğur)



Makom (Özbəkistan)



Raqa (Hindistan)

LAYİHƏ

«Azərbaycanım» mahnısı mülayim və şən tempdədir. 2/4 xanə ölçüsündə və marş xarakterlidir. Mahnıda yarım, çərək, səkkizlik və onaltılıq notlardan istifadə edilmişdir. Mahnı «Şüştər» muğamı üstündə və mi bemol major tonallığında yazılmışdır. Mahnının ilk ifaçısı dünya şöhrətli müğənni Rəşid Behbudovdur.



**Rauf Hacıyev**

## Mahnı öyrənək

### AZƏRBAYCANIM

*Musiqisi Rauf Hacıyevin,*
*sözləri Ənvər Əlibəylinindir.*

I

Özün kimi vüqarlıdır uca dağların,
Hüsnünə bir yaraşıqdır yaşıl bağların,
Bizimlə bir başlamışdır gözəl çağların.

**Nəqərat:**
Yurdum-yuvam, məskənimsən, Azərbaycanım,
Anam doğma vətənimsən, Azərbaycanım. (2)

II

El bilir ki, tükənməyən sərvətin vardır,
Sinən üstü ağ pambıqlı gen tarlalardır,
Buruqların göy Xəzərdə qatar-qatardır.

**Nəqərat:**
Yurdum-yuvam, məskənimsən, Azərbaycanım,
Anam doğma vətənimsən, Azərbaycanım. (2)

## SUAL VƏ TAPŞIRIQLAR

1. Muğam nədir?
2. Dəsgah nədir?
3. Muğamlar neçə cür olur?
4. Xanəndə kimdir?
5. Qəzəl nədir?
6. Dəraməd nədir?
7. Muğamın əhatə dairəsi haqda fikirlərinizi söyləyin.

## Musiqi lüğəti

**Kamança** – diz üstünə qoyulub yayla çalınan, 4 simli Azərbaycan xalq musiqi aləti
**Tar** – mizrabla çalınan 11 simli Azərbaycan xalq musiqi aləti
**Muğam** – musiqi janrı
**Təsnif** – dəsgah şöbələri arasında keçid üçün istifadə edilən sabit ölçülü nəğmə
**Rəng** – muğam şöbələri arasında səslənən rəqs xarakterli musiqi parçası

LAYİHƏ

# ZƏRBİ-MUĞAMLAR

Zərbi-muğam instrumental-vokal janrıdır. Zərbi-muğamların ifasında əsərin əvvəlindən sonuna kimi Azərbaycan xalq zərb alətləri fəal iştirak edir. «Heyratı», «Simayi-şəms», «Mənsuriyyə», «Arazbarı», «Mani», «Heydəri», «Ovşarı», «Qarabağ şikəstəsi», «Kəsməşikəstə» xalq arasında geniş yayılmış zərbi-muğamlardır.



Musiqi dinləyək



Xan Şuşinski

## QARABAĞ ŞİKƏSTƏSİ

Xan Şuşinski, Seyid Şuşinski, Cabbar Qaryağdıoğlu kimi məşhur xanəndələr məhz Qarabağda yaşayıb-yaratmışlar. Elə bu səbəbdən Qarabağ Azərbaycanın muğam məbədi hesab olunur. Təsadüfi deyildir ki, «Qarabağ şikəstəsi» zərbi-muğamı da Azərbaycanın zəngin muğam ənənəsi ilə məşhurlaşan ərazisində – Qarabağda yaranmışdır.

«Qarabağ şikəstəsi» onu ifa edən xanəndədən güclü və yüksək səs tələb edir. Majorda, təntənəli səslənən «Qarabağ şikəstəsi»nin xanə ölçüsü 2/4-dir. Azərbaycanın Xalq artisti, bəstəkar Firəngiz Əlizadə «Qarabağnamə» operasında «Qarabağ şikəstəsi»ndən olduğu kimi istifadə edib.

LAYİHƏ

Mahnı öyrənək

# AZƏRBAYCAN YAŞAYIR

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Rafiq Yusifoğlunundur.*

I

Hərəmiz bu Vətənin,
Parçası, zərrəsiyik.
Yağılara yurdumun,
Parçası, zərrəsi yük.

II

Necə ki, ruhumuz var,
Necə ki, dilimiz var.
Azərbaycan yaşayır,
Yurdumuz-elimiz var.

III

Nə zaman ki, birləşib,
Hissim, ruhum, bədənim.
Dünyanın özü boyda,
Bir dünyadır Vətənim.

**Nəqərat:**
Bu vətənin yolunda
Birləşsin əllərimiz.
Sevinsin dağlarımız,
Sevinsin çöllərimiz.

Vətənpərvərlik mövzusunda yazılmış «Azərbaycan yaşayır» mahnısı mi major qammasındadır. Major tonallığı, 4/4 xanə ölçüsü və təntənəli xarakteri olan bu mahnı marş tempində səslənir. Birinci cümlə 4 xanə, 2 frazadan, ikinci cümlə də 4 xanə, 2 frazadan təşkil olunub. Mahnının melodiyasında onaltılıq, səkkizlik, çərək və bütöv notlardan istifadə olunub. Mahnının bənd hissəsi metso forte (mf), nəqəratı isə forte (f) nüansları ilə ifa olunmalıdır. «Azərbaycan yaşayır» mahnısı bənd quruluşuna malikdir. Yəni əvvəlcə bənd, sonra isə nəqərat səslənir. Bir, iki, üçhissəli, rondo, variasiya quruluşlu musiqi əsərlərinə mahnı janrını da aid etmək olar. «Azərbaycan yaşayır» mahnısını notlarla və sözləri ilə oxuyarkən səsə gərginlik vermək və qışqırmaq olmaz.

## Musiqi lüğəti

**Xanəndə** – muğam və zərbi-muğam ifa edən vokalçı
**Zərbi-muğam** – şifahi ənənəyə əsaslanan, ritmlə ifa olunan instrumental-vokal janrı

## SUAL VƏ TAPŞIRIQLAR

1. Zərbi-muğam nədir?
2. Muğam və zərbi-muğam arasındakı fərq nədən ibarətdir?
3. Zərbi-muğam oxuyan hansı xanəndələri tanıyırsınız?
4. «Qarabağ şikəstəsi» harada yaranmışdır?
5. Görkəmli muğam ifaçıları haqqında şifahi təqdimat hazırlayın.

LAYİHƏ

## MUĞAM USTALARI


Seyid Şuşinski


Xan Şuşinski


Arif Babayev


Nəzakət Teymurova

## AŞIQLAR


Aşıq Kamandar


Aşıq Ədalət

## RƏQQASƏLƏR


Əminə Dilbazi


Tərana Muradova

LAYİHƏ

# II bölmə



# AZƏRBAYCAN VƏ DÜNYA XALQLARININ MUSİQİSİ

LAYİHƏ

# NİYAZİNİN «QAYTAĞI» SİMFONİK ƏSƏRİ VƏ «LƏZGİNKA» LƏZGİ XALQ RƏQSİ


«Qaytağı» rəqsi

Rəqslər xalqın tarixini, onun milli xüsusiyyətlərini, həyat və məişətini əks etdirir. Ləzgi xalq rəqsi «Ləzginka» da bu xalqın çəldliyini, cəsurluğunu və qətiyyətini nümayiş etdirir. «Ləzginka» hərəkətli və oynaq rəqsdir. Bu rəqsi, adətən, kişilər ayaq üstə, qollarını səmada süzən qartal kimi geniş açaraq ifa edirlər. Qartal isə xalqın qüdrət, məğrurluq və cəsarət rəmzi hesab edilir. Azərbaycanda bu rəqsə «Ləzgihəngi» də deyirlər. «Ləzginka» rəqsi ilə məşhur Azərbaycan dirijoru və bəstəkarı Niyazinin böyük simfonik orkestr üçün yazdığı «Qaytağı» simfonik əsərinin xarakterləri bir-birinə oxşardır. Hər iki musiqi nümunəsini dinləyəndə insanda xoş əhvali-ruhiyyə yaranır.


«Ləzginka» rəqsi


Niyazi simfonik orkestrlə

LAYİHƏ

Musiqi dinləyək

**SİMFONİK ORKESTR üçün «QAYTAĞI»**

*Musiqisi Niyazinindir.*

Mahnı öyrənək

## QALADA YATMIŞ İDİM

**(Azərbaycan xalq mahnısı)**

I

Qalada yatmış idim,
Top atdılar, oyanmadım,
Saz ilə, söhbət ilə oyatdılar. (2)

II

Çaldılar, oxudular,
Oynadılar, şad oldular,
Danışıb, söhbəti də uzatdılar. (2)



«Rast» Azərbaycan klassik muğamına əsaslanan «Qalada yatmış idim» xalq mahnısı do lya (yəni seksta) interval səsləri arasında oxunur. 6/8 xanə ölçüsündə və tez tempdə olması ona rəqs xarakteri verir. Bu mahnıda səkkizlik və çərək notlardan, cəmi bir yerdə isə onaltılıq notdan istifadə edilib. Mahnı mi major tonallığında nota köçürülüb.

## Musiqi lüğəti

**«Ləzginka»** – ləzgi xalq rəqsi

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR

1. «Ləzginka» rəqsinin metrik ölçüsü neçədir?
2. «Ləzginka» rəqsi Azərbaycan dilində necə adlanır?
3. «Qaytağı» rəqsi hansı xalqa məxsusdur?
4. Rəqslərin adlarından ibarət siyahını tamamla: «Qaytağı», «Ləzginka», «Nəlbəki»...
5. «Ləzginka» və Niyazinin «Qaytağı» simfonik əsərinin bənzərliyi mövzusunda şifahi təqdimat hazırlayın.

# AZƏRBAYCAN XALQ MUSİQİSİ RUS BƏSTƏKARLARININ YARADICILIĞINDA



Mixail Qlinka



Reynqold Qliyer



Mixail İppolitov-İvanov

Melodik və rəngarəng Azərbaycan xalq musiqisi əsrlər boyu başqa xalqların bəstəkarlarını da maraqlandırıb. Yurdumuzun təbiəti, gözəlliyi, mahnıları, rəqsləri, adət və ənənələri bir vaxtlar rus şairləri Sergey Yesenini, Mixail Lermontovu, Aleksandr Puşkini valeh etmiş, onlar öz yaradıcılıqlarında bu heyranlığı əks etdirmişlər. Rus bəstəkarlarından Mixail Qlinka, Mixail İppolitov-İvanov, Reynqold Qliyer də Azərbaycan xalq mahnı və rəqslərindən öz əsərlərində istifadə etmişlər.

Mahnı öyrənək

## AZƏRBAYCAN XALQ MAHNISI «NİNNİ»

«Ninni» çox qədim Azərbaycan xalq mahnısıdır. Bu mahnı beşik nəğməsi hesab olunur və «Segah» muğamı üstündə səslənir.

### NİNNİ

**(Azərbaycan xalq mahnısı)**

Könlümün bir gülüsən (2),
O gülün bülbülüsən,
Sinəmin sünbülüsən,
Səni, balam, sevərəm.

Layla dedim, yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində,
Şirin yuxu tapasan,
Layla, balam, a layla!

Bu mahnı xaraktercə sakitdir, 2/4 xanə ölçüsündə səslənir.



LAYİHƏ

Musiqi dinləyək

# MİXAİL İPPOLİTOV-İVANOVUN «TÜRK FRAQMENTLƏRİ» SİMFONİK ƏSƏRİNİN BİRİNCİ HİSSƏSİ

Bu simfonik fraqmentlər rus bəstəkarı Mixail İppolitov-İvanov tərəfindən keçən əsrin əvvəllərində yazılıb və tez bir zamanda şöhrət tapıb. Dinlədiyimiz fraqmentdə məhz Azərbaycan xalq mahnısı «Ninni»dən istifadə olunub. Bu iki nümunəni belə müqayisə etmək olar:

**«Ninni» Azərbaycan xalq mahnısının xarakteri və ifa tərzi**

1. Melodiya mülayim tərzdə səslənir.
2. Melodiya səslə fortepianonun müşayiətində səslənir.

«Ninni» Azərbaycan xalq mahnısı qadın müğənninin ifasında səslənir, onu müşayiət edən ya xalq çalğı alətləri ansamblı, ya da fortepiano aləti ola bilər. «Ninni» Azərbaycan xalq mahnısını və «Türk fraqmentləri» əsərini birləşdirən onların melodiyasının eyni olmasıdır.

**«Türk fraqmentləri» simfonik əsərindən I hissənin xarakteri və ifa tərzi**

1. Melodiya marş xarakterlidir.
2. Melodiya simfonik orkestrin ifasında səslənir.

«Türk fraqmentləri» əsərinin I hissəsində «Ninni» Azərbaycan xalq mahnısının melodiyasından istifadə olunsa da, bu melodiya marş xarakterində və simfonik orkestr tərəfindən səsləndiyi üçün daha təntənəlidir.



## Musiqi lüğəti

**«Ninni»** – beşik nəğməsi

## SUAL VƏ TAPŞIRIQLAR

1. Hansı rus bəstəkarları Azərbaycan xalq musiqisi nümunələrindən istifadə etmişdir?
2. «Ninni» Azərbaycan xalq mahnısı hansı muğam üstündə səslənir?
3. Mixail İppolitov-İvanovun «Türk fraqmentləri» simfonik əsərində hansı Azərbaycan xalq mahnısından istifadə edilib?
4. «Azərbaycan laylası» cizgi filmini izləyin. Bu cizgi filmində ifa olunan layla ilə «Ninni» arasında hansı fərq var? YouTube üzərindən axtarış üçün açar sözlər: layla, Azərbaycan laylası
5. «Ninni» Azərbaycan xalq mahnısı haqqında şifahi təqdimat hazırlayın.

LAYİHƏ

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA ƏRƏB XALQ MUSİQİSİ



Elmira Nəzirova

Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovla məşhur pianoçu-bəstəkar Elmira Nəzirova ərəb xalq mahnı və rəqslərindən istifadə edərək fortepiano və simfonik orkestr üçün «Konsert» yazmışlar. «Konsert» həm də professional orkestrlərdən birinin, məsələn, Azərbaycan xalq çalğı alətləri orkestrinin ifasında səslənə bilər.



Fikrət Əmirov

Musiqi dinləyək

## F.ƏMİROV VƏ E.NƏZİROVA. «ƏRƏB MÖVZUSUNDA FORTEPİANO VƏ SİMFONİK ORKESTR ÜÇÜN KONSERT»dən BİR PARÇA

«Ərəb mövzusunda fortepiano və simfonik orkestr üçün konsert»də müəlliflər qədim ərəb xalq mahnı və rəqslərindən istifadə ediblər. Musiqini dinlədikcə Misirdəki qədim ehramlar, qumlu səhra boyunca hərəkət edən dəvə karvanı insanın gözü qarşısında canlanır. Bu əsəri yazmaq üçün hər iki bəstəkar bir neçə dəfə Misirdə və digər ərəb ölkələrində olmuş və buradakı xalq musiqi nümunələrini dinləyib nota köçürmüşlər. Sonradan bu əsər Bakı, Moskva, Qahirə, eyni zamanda bir sıra Avropa ölkələrində və Amerikada səslənmişdir.

Simfonik muğam janrının yaradıcısı Fikrət Əmirov və bəstəkar Elmira Nəzirova bu əsəri yazmaqla sübut etdilər ki, xalqımızın musiqisi ilə digər xalqların musiqisi arasında keçilməz sərhədlər yoxdur.



LAYİHƏ

Mahnı oxuyaq

## BƏNÖVŞƏ
(Azərbaycan xalq mahnısı)

I
Dağlara gün düşübdür, (2)
Açıl, bənövşəm, açıl. (2)
Bağlara gün düşübdür, (2)
Açıl, bənövşəm, açıl. (2)

II
Dağlara çökdü duman, (2)
Gizlən, bənövşəm, gizlən. (2)
Bağlara çökdü duman, (2)
Gizlən, bənövşəm, gizlən. (2)



III
Dağlara əsdi külək, (2)
Dikəl, bənövşəm, dikəl. (2)
Bağlara əsdi külək, (2)
Dikəl, bənövşəm, dikəl. (2)

IV
Dağlara qar yağıbdır, (2)
Yığıl, bənövşəm, yığıl. (2)
Bağlara qar yağıbdır, (2)
Yığıl, bənövşəm, yığıl. (2)

«Bənövşə» mahnısının səs sırası:



Sol minor qammasının səs sırası:




Göründüyü kimi, «Bənövşə» mahnısının səs sırasındakı 4 not sol minor qammasının birinci 4 səsinə uyğundur. Qammanın birinci 4 səsinə I tetraxord və ikinci 4 səsinə II tetraxord deyilir.

## Musiqi lüğəti

**Konsert** – solo musiqi aləti və orkestr üçün yazılmış mürəkkəb quruluşlu əsər

## SUAL VƏ TAPŞIRIQLAR

1. «Ərəb mövzusunda konsert»in müəllifləri kimdir?
2. Fikrət Əmirov və Elmira Nəzirova hansı xalqın musiqisindən istifadə edərək konsert yazmışlar?
3. Qammanın hansı səslərinə I, hansına isə II tetraxord deyilir?
4. Tetraxordda neçə səs olur?
5. Fikrət Əmirov haqqında şifahi təqdimat hazırlayın.

LAYİHƏ

# AZƏRBAYCAN BƏSTƏKARININ YARADICILIĞINDA ORTA ASİYA SƏHRALARININ TƏSVİRİ



Bir sıra xalqların bəstəkarlarının yaradıcılığında Azərbaycan xalq musiqisi nümunələrindən istifadə edilib. Azərbaycan bəstəkarlarının yaradıcılığında da digər xalqların musiqisi, onların həyat tərzi öz əksini tapmışdır.

Musiqi dinləyək

## «KARVAN» SİMFONİK LÖVHƏSİ



**Soltan Hacıbəyov**

1940-cı ildə Soltan Hacıbəyov Türkmənistan Dövlət Opera və Balet Teatrından «Kəminə və qazı» adlı opera üçün sifariş alır. Bəstəkar bu əsəri başa çatdıra bilmir.

Bu opera üçün yazılan musiqi parçalarından biri də Orta Asiya səhralarını təsvir edən «Karvan» musiqisi idi. Həmin musiqi əsasında S.Hacıbəyov «Karvan» simfonik lövhəsini yazır. «Karvan» proqramlı musiqi əsəridir. Əsərdə səhra və hərəkət edən dəvə karvanı göz önündə canlanır.

Bəstəkar bu əsərdə zərb, nəfəs və simli alətlər qrupundan istifadə edərək musiqi dili və musiqi ifadə vasitələri ilə hərəkət edən dəvə karvanını böyük məharətlə təsvir etmişdir.

Bəstəkarın karvanın hərəkətini xatırladan ritmin üstündə fleyta alətində zil registrdə «Şur» muğamının «Hicaz» şöbəsi intonasiyalarından istifadə etməsi bu əsərin təsir gücünü daha da artırır.

LAYİHƏ

Mahnı öyrənək

## ŞƏFƏQ SÖKÜLƏRKƏN
**(Azərbaycan xalq mahnısı)**

*Not yazısı Üzeyir Hacıbəylinindir.*



**Solo:**
Şəfəq sökülərkən xoruzlar banlar,
Sis-dumanlı dərə, bayır, ormanlar.
Sürüsünü yayar dağa çobanlar,
Təbiətin zövqünü onlar anlar.

**Nəqərat:**
**Xor:**
Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

**Solo:**
Gözəl olur bu yerlərin səhəri,
Dağ başından doğar altunsaç pəri.
Çəmənlərin qırmızıdon dilbəri,
Şəfəqilə boyar, bəzər hər yeri.

**Nəqərat:**
**Xor:**

Mahnı marş tempindədir, təntənəli səslənir. «Rast» klassik Azərbaycan muğamına əsaslanan 2/4 xanə ölçülü «Şəfəq sökülərkən» mahnısı çoban əməyinə həsr olunub.

Mahnı bənd və nəqəratdan ibarətdir. Bənd solo, nəqərat isə xor şəklində ifa olunur.

Üzeyir Hacıbəyli bu mahnıdan əlavə «Ninni», «Beşik başında», «Tutu nənəm», «İş başına», «Səhər-səhər yaz çağı», «Zəhmətin işığı» və başqa xalq mahnılarımızı da nota almışdır.

### SUAL VƏ TAPŞIRIQLAR

1. «Karvan» simfonik lövhəsi hansı operaya yazılmış musiqi əsasında işlənib?
2. «Karvan» simfonik lövhəsinin məzmununu necə başa düşürsünüz?
3. «Karvan» simfonik lövhəsini proqramlı adlandırmaq olarmı?
4. «Şəfəq sökülərkən» mahnısında kənddə günün hansı vaxtı və əlaməti təsvir olunub?

LAYİHƏ

# AZƏRBAYCAN BƏSTƏKARI VƏ ÇİN LADI

Xalq artisti Qara Qarayev Azərbaycan və müxtəlif dünya xalqlarının xalq musiqisi nümunələrindən istifadə edərək gözəl sənət əsərləri yaratmışdır. Bəstəkar ispan yazıçısı Migel de Servantesin «Don Kixot» romanı əsasında çəkilən eyniadlı filmin musiqisində ispan musiqisi intonasiyalarından yararlanmışdır. «İldırımlı yollarla» baletində isə bəstəkar zənci musiqisi intonasiyalarına müraciət etmişdir. Bəstəkar ilk baleti olan «Yeddi gözəl»də yeddi xalqın musiqi intonasiyalarından istifadə edərək yeddi gözəl obrazı yaradıb. Bu portretlərdən biri də «Çin gözəli»nin portretidir. Bu portreti işləmək üçün Qara Qarayev «çin ladı» adlanan səs sırasından istifadə etmişdir. Major ladında «çin ladı» belə qurulur:





Qara Qarayev

## ÇİN LADI (MAJORDA)




Onu major ladı ilə müqayisə edək:




Major ladında olan IV və VII pillələr götürüldükdə 5 pillədən ibarət «Çin ladı» (Pentatonika) yaranır. Pentatonika sözü penta – «beş» və ton – «səs» sözlərinin birləşməsindən yaranıb.

LAYİHƏ

# 14

Musiqi dinləyək

## QARA QARAYEVİN «YEDDİ GÖZƏL» BALETİNDƏN «ÇİN GÖZƏLİNİN RƏQSİ»

Mahnı öyrənək



## MƏKTƏBLİLƏRİN SÜLH HAQQINDA MAHNISI

*Musiqisi Qara Qarayevin,*
*sözləri Zeynal Cabbarzadənindir.*

I

Ana yurdun qucağında,
Boy atırıq azad, şən.
Bəslər bizi, səslər bizi,
Xoş günlərə bu Vətən.

**Nəqərat:**
Qoy mahnımız hər tərəfi,
Ağız-ağız dolaşsın!
Qoy səsimiz keçilməyən,
Meşə keçsin, dağ aşsın.

II

Hərbi qızışdıranlar,
Olmuş sülhün düşməni.
Tökmək istər, sökmək istər,
Bombalarla dünyanı.
**Nəqərat:**

III

Yurdumuza biz arxayıq,
Qorxumuz yox davadan.
Sülh var olsun, bahar olsun,
Yer üzündə hər zaman!
**Nəqərat:**

Mahnı lya major qammasında «Rast» muğamı intonasiyaları üzərində, 2/4 xanə ölçüsündə və marş tempində səslənir.

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR

1. Qara Qarayev hansı əsərində ispan intonasiyalarından istifadə etmişdir?
a) «Yeddi gözəl» b) «İldırımlı yollarla» c) «Don Kixot»
2. «Çin ladı» majorda necə qurulur?
3. Pentatonika nə deməkdir?
4. Major və çin ladı arasında bənzərlik haqqında fikirlərinizi söyləyin.

# 6/8 METRİK ÖLÇÜSÜ VƏ ŞƏRQ MUSİQİSİ

Azərbaycan xalq mahnı və rəqslərinin əksəriyyətinin xanə ölçüsü 6/8-dır. Yəni bir xanədə 6 səkkizlik not yerləşir. Bu cür ritmlər özbək, tacik, türkmən musiqisində də öz əksini tapmışdır. «Yalla» adlanan kütləvi özbək rəqsinin musiqisi və ifa tərzi bizim 2/4 ölçülü «Yallı» rəqsinə oxşayır.

Mahnı öyrənək

## YENİ İL

*Musiqisi Musa Mirzəyevin,*
*sözləri Hikmət Ziyanındır.*

I

Süd kimi ağ qar ilə,
Çoxlu-çoxlu bar ilə,
Qış ilə, bahar ilə,
Yeni il gəldi,
Yeni il gəldi.
Neçə nübar ilə,
Yeni il gəldi.

II

Dekabrın son günü
Bizə tutub üzünü,
Dedi ürək sözünü:
– Yeni il gəldi,
Yeni il gəldi.
Görürük özünü,
Yeni il gəldi.

III

Bəzənmişdir yolkalar,
Onların da sözü var:
– Bilsin ellər, obalar,
Yeni il gəlir,
Yeni il gəlir.
Sevinir uşaqlar,
Yeni il gəlir.

VI

Sevinclə gülə-gülə,
Aydın səhərlər ilə,
Yeni zəfərlər ilə,
Yeni il gəldi,
Yeni il gəldi.
Hər obaya, elə,
Yeni il gəldi.



Bu mahnı 6/8 xanə ölçüsündə və fa major tonallığında səslənir.

Musiqi dinləyək

## BİR QUŞ DÜŞDÜ HAVADAN

*İşləyəni Üzeyir Hacıbəylidir.*

Bir quş düşdü havadan,
Qondu sinəmin üstə.
Verdi salam anadan,
Ağzında kağız üstə.

Dedim, quşum, di uç get,
Məndən ona salam et.
Oynamağa yoxdur vaxt,
Dərslərimdir çox-çox sərt.

«Bir quş düşdü havadan» mahnısının musiqisini və sözlərini Üzeyir Hacıbəyli keçən əsrin 20-ci illərində işləyib.

LAYİHƏ

# III

# bölmə



# DÜNYA XALQLARININ MUSİQİSİ ARASINDA KEÇİLMƏZ SƏRHƏDLƏR YOXDUR

LAYİHƏ

# İOHANN SEBASTYAN BAX VƏ AZƏRBAYCAN MUĞAMI «BAYATI-ŞİRAZ»



**Musiqi üçlüyü**



**İohann Sebastyan Bax**

Dahi alman bəstəkarı İohann Sebastyan orqan musiqi aləti üçün «Re minor Tokkata və Fuqa» əsərində klassik Azərbaycan muğamı «Bayatı-Şiraz»ın intonasiyalarından məharətlə istifadə etmişdir.

**Tokkata** – italyan sözü olub «toxunmaq», «əl dəymək» deməkdir. **Fuqa** – latın sözü olub «yüyürmək» deməkdir. Fuqa ciddi qanunlara əsaslanan çoxsəsli musiqi janrıdır. Həm tokkata, həm də fuqa janrı musiqiçidən böyük ifa məharəti tələb edir.

Bəs İohann Sebastyan Bax bizim «Bayatı-Şiraz» muğamını harada eşitmişdi? Belə güman edilir ki, indi olduğu kimi, o vaxtlar da müxtəlif ölkələr arasında ticarət əlaqələri olub. Ola bilsin ki, İohann Sebastyan Bax Almaniyaya gedən tacirlərdən birinin ifasında «Bayatı-Şiraz» muğamını eşitmişdir.

Musiqi dinləyək

## «BAYATI-ŞİRAZ» MUĞAMININ «BƏRDAŞT» ŞÖBƏSİ VƏ İOHANN SEBASTYAN BAXIN «RE MİNOR TOKKATA VƏ FUQA»SINDAN BİR PARÇA

LAYİHƏ



«Bərdaşt» muğamın əvvəlində səslənən instrumental müqəddimədir. Bərdaşt ifa ediləcək muğamın əhvali-ruhiyyəsini əvvəlcədən dinləyicilərə çatdırır. «Bayatı-Şiraz» muğamının «Bərdaşt» şöbəsinin melodiyası, əsasən, onaltılıq, səkkizlik, çərək və yarım notlardan ibarətdir.

Orqan musiqi aləti

# Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

**17**

Mahnı öyrənək



## BULAQ

*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*

I

Durnagözlü sərin bulaq,
Məskənindir zümrüd yaylaq.
Maral içir, ay aman, sularından,
Kölgə salır, ay bulaq, sənə qovaq.

**Nəqərat:**
Sərin bulaq, sərin bulaq,
Gələcəyəm sənə qonaq.

II

Dağ döşündə durulursan,
Qayalardan burulursan.
Şırıldayıb axan zaman,
Elə bil ki, parlaq nursan.
**Nəqərat:**

III

Şərbətisən hər yaylağın,
Yayda olur çox yığnağın.
Ellər gəlir görüşünə,
Əskik olmur heç qonağın.
**Nəqərat:**

Görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti, gözəl lirik mahnılar müəllifi Səid Rüstəmov 1907-ci ildə qədim Azərbaycan torpağı olan İrəvan şəhərində anadan olmuşdur. Onun yaradıcılığında mahnı janrı əsas yer tutur. «Sürəyya», «Neftçi qız», «Sumqayıt», «Mən sülhə səs verirəm» mahnılarına görə Səid Rüstəmov 1957-ci ildə «Dövlət mükafatı laureatı» adına layiq görülmüşdür. Bəstəkar, eyni zamanda «Beş manatlıq gəlin», «Durna», «Rəisin arvadı» kimi musiqili komediyaların da müəllifidir.

## Musiqi lüğəti

**«Bayatı-Şiraz»** – klassik Azərbaycan muğamı
**Orqan (ərğənun)** – klavişli musiqi aləti

## SUAL VƏ TAPŞIRIQLAR

1. İohann Sebastyan Bax hansı xalqın bəstəkarıdır və neçənci əsrdə yaşamışdır?
2. «Bərdaşt» nədir və muğamların hansı hissəsində səslənir?
3. İohann Sebastyan Baxın «Re minor Tokkata və Fuqa» əsərində hansı Azərbaycan klassik muğamının intonasiyaları səslənir?
4. Doğru cavabı tap:

| Klassik muğamlar | Cavab |
|---|---|
| Bayatı-Qacar | bəli/xeyr |
| Zabul-Segah | bəli/xeyr |
| Bayatı-Şiraz | bəli/xeyr |

| Klassik muğamlar | Cavab |
|---|---|
| Mirzə-Hüseyn segahı | bəli/xeyr |
| Hümayun | bəli/xeyr |

5. «İohann Sebastyan Bax və «Bayatı-Şiraz» muğamı» mövzusunda esse yazın.

LAYİHƏ

## 18 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

# RUS BƏSTƏKARI DMİTRİ KABALEVSKİ VƏ YAPON XALQ MAHNISI



Dmitri Kabalevski

XX əsrin görkəmli bəstəkarı Dmitri Kabalevski bir çox opera, simfoniya, müxtəlif musiqi alətləri üçün konsert, oratoriya, rekviyem, kantata və kino musiqisinin müəllifidir. Bu musiqi janrlarından başqa bəstəkar, eyni zamanda uşaqları da unutmamış və onlar üçün gözəl mahnılar yazmışdır.

Bəstəkarın rus şairi Anatoli Prişeletsin sözlərinə yazdığı «Bizim diyar» mahnısını uşaqlar sevə-sevə oxuyurlar. Gözəl bəstəkarımız Qəmbər Hüseynlinin «Cücələrim» mahnısı bütün dünya xalqlarının dilinin əzbəri olduğu kimi, Dmitri Kabalevskinin sadə, vals templi «Bizim diyar» mahnısı dünya uşaqlarının sevimli melodiyasına çevrilmişdir.

Mahnı öyrənək

## BİZİM DİYAR

*Musiqisi Dmitri Kabalevskinin,*
*sözləri Anatoli Prişeletsin,*
*tərcüməsi Əjdər Ağayevindir.*

Çinarlar qatar-qatardır,
Torpağında, ey Vətən.
Ürəklərin sevincisən,
Harda var belə məskən?! (2)

**Nəqərat:**
Dəniz bir yan, bir yan dağdır,
Çoxludur meşələrin...
Nə genişsən, nə sonsuzsan
Günəşlidir səhərin. (2)

Şəfəqdənmi don geyinib,
Hər tərəf, hara baxsan.
Yamyaşılsan, gül-çiçəksən,
Bəzənmisən al-əlvan. (2)

**Nəqərat:**
Bahardan da baharlısan,
Hər gün çiçəklənirsən.
Yaşayırıq, yaradırıq,
Səndə, ey ana Vətən! (2)



LAYİHƏ

# 18 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

## Mahnını notla və sözlərlə oxuyaq

Dmitri Kabalevski yapon xalq mahnısı «Albalı»dan istifadə edərək fortepiano üçün «Yapon xalq mahnısı mövzusunda variasiyalar» yazmışdır.

### ALBALI

**(Yapon xalq mahnısı)**
*Rus dilindən tərcüməsi Vladimir Qafarovundur.*



Albalı gül açıb,
Hara baxsan gül-çiçək.
Gəlin onu iyləyək,
Üstünə əsir külək.
Qızılgül ətri gəlir,
Albalı çiçəyindən,
Albalı çiçəyindən.

## Musiqi dinləyək

### YAPON XALQ MAHNISI MÖVZUSUNDA VARİASİYALAR

*Musiqisi Dmitri Kabalevskinindir.*

### Musiqi lüğəti

**Fortepiano** – zərbli-dilli, simli musiqi aləti
**Pianino, royal** – fortepiano musiqi alətinin növləri

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR

1. Dmitri Kabalevski kimdir?
2. Dmitri Kabalevskinin hansı əsərlərini tanıyırsınız?
3. «Bizim diyar» mahnısında Vətən öz təsvirini necə tapıb?
4. «Yapon xalq mahnısı mövzusunda variasiyalar»dan Dmitri Kabalevski hansı mahnılarda istifadə edib?
5. Dmitri Kabalevski və Yapon musiqisi haqqında şifahi təqdimat hazırlayın.

# 19 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

# RUS BƏSTƏKARI NİKOLAY RİMSKİ-KORSAKOV VƏ ŞƏRQ MUSİQİSİ



Nikolay Rimski-Korsakov

Nikolay Rimski-Korsakov görkəmli rus bəstəkarıdır. O, 15 opera, 3 simfoniya, simfonik süitalar, 80 romans, 3 kantata, xor əsərləri, kamera-instrumental ansamblı və fortepiano üçün gözəl nümunələrin müəllifidir.

Bəstəkar musiqi ifadə vasitələrilə gözəl obrazlar yarada bilib. Məsələn, «Sadko» operasında dəniz-okean obrazı, «Şəhrizad» simfonik süitasında quşların cəh-cəhini, dalğaların gücünü, yarpaqların xışıltısını musiqi dili vasitəsilə çox gözəl ifadə etmişdir. Bəstəkar bir sıra əsərlərində Şərq musiqi motivlərindən məharətlə istifadə etmişdir.

## «ŞƏHRİZAD» SİMFONİK SÜİTASI

Bəstəkarın 1888-ci ildə yazdığı «Şəhrizad» simfonik süitası «Min bir gecə» ərəb nağılları motivlərinə əsaslanmışdır. 4 hissədən ibarət bu süitanı dinləyən insanın gözü qarşısında mavi dəniz, parlaq günəş, Bağdad şəhərinin obrazı canlanır. Hissələr arasında gözəl Şəhrizadın Sultan Şəhriyara söylədiyi nağılqabağı musiqi mövzusu səslənir.

Süita «Dəniz və Sindibadın gəmisi», «Şahzadə Qələndərin hekayəti», «Şahzadə və Şahzadə qız», «Bağdadda bayram» adlı dörd hissədən ibarətdir.



LAYİHƏ

# 19 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

Musiqi dinləyək

## NİKOLAY RİMSKİ-KORSAKOVUN «ŞƏHRİZAD» ƏSƏRİNDƏN I HİSSƏ

Mahnı öyrənək

### SARIBÜLBÜL
(Azərbaycan xalq mahnısı)

I
«Vətən bağı» al-əlvandır,
Yox içində xarıbülbül.
Ömür sürməli dövrandır,
Səsin gəlsin, sarıbülbül.

II
Oxu, nəğməm dilə gəlsin,
Xoş nəfəsin elə gəlsin.
Bahar gülə-gülə gəlsin,
Mən çalanda tarı, bülbül.





Səxavət Məmmədov

«Sarıbülbül» mahnısı 3/4 xanə ölçüsündədir. Mahnıda onaltılıq, səkkizlik və çərək notlardan istifadə olunur. Bu mahnı «Segah» Azərbaycan klassik muğamı intonasiyaları əsasında yazılmışdır.

«Sarıbülbül» Azərbaycan xalq mahnısının ən gözəl ifaçısı Səxavət Məmmədov olub.

## Musiqi lüğəti

**Süita** – bir neçə müstəqil hissədən ibarət musiqi əsəri

## SUAL VƏ TAPŞIRIQLAR

1. Nikolay Rimski-Korsakovun yaradıcılığında hansı janrlar üstünlük təşkil edir?
2. «Şəhrizad» simfonik süitası neçə hissədən ibarətdir?
3. Səxavət Məmmədovun ifasında «Sarıbülbül» xalq mahnısını dinləyin. Mahnının məzmunu ilə ifa tərzi arasında əlaqəni tapın.

YouTube üzərindən axtarış üçün açar sözlər: Səxavət Məmmədov, xalq mahnısı «Sarıbülbül»

LAYİHƏ

# MİXAİL QLİNKA VƏ İSPAN MUSİQİSİ





«Ruslan və Lyudmila» və «İvan Susanin» kimi iki möhtəşəm operanın müəllifi olan böyük rus bəstəkarı Mixail Qlinka həm də gözəl simfonik əsərlərin müəllifidir. Bəstəkarın başqa xalqların mahnı və rəqsləri əsasında yazılmış «Araqon xotası» və «Madriddə gecə» simfonik musiqi nümunələri musiqi sənətinin əvəzolunmaz inciləridir.

«Araqon xotası» 1845-ci ildə İspaniyanın paytaxtı olan Madrid şəhərində, «Madriddə gecə» uvertürası isə 1851-ci ildə, bəstəkar artıq öz vətəninə qayıtdıqdan sonra yazılmışdır.

Araqon İspaniyada bir vilayətin adıdır. «Xota» isə «Yallı» və «Halay» kimi kütləvi ispan rəqsidir.

Şən və oynaq xarakterli «Araqon xotası» uvertürasında bəstəkar kütləvi ispan xalq rəqslərinin melodiyasından istifadə etmişdir.

Musiqi dinləyək

## MİXAİL QLİNKA. «ARAQON XOTASI» UVERTÜRASINDAN BİR PARÇA



LAYİHƏ

## TORAĞAY

Mixail Qlinka «Torağay» mahnısında çox gözəl və məlahətli bir melodiya yaratmışdır. «Torağay» mahnısının fortepiano müşayiətində Rusiyanın ucsuz-bucaqsız təbiəti göz önündə canlanır. Bəstəkar musiqi ifadə vasitələrindən istifadə etməklə melodiya və onun müşayiəti arasında, bir növ, dialoq yaradır.



Mahnı öyrənək



**Qaçaq Nəbi**

## QAÇAQ NƏBİ
**(Azərbaycan xalq mahnısı)**

Bozat, səni sər tövlədə bağlaram,
And içirəm, səni məxmər çullaram,
Ay Bozat, çullaram.
Bozat, məni bu davadan qurtarsan,
Qızıldan, gümüşdən səni nallaram,
Ay Bozat, nallaram.
Qoy mənə desinlər, ay nadan Nəbi,
Divarı yerindən oynadan Nəbi.



Qaçaq Nəbi xalqa zülm edənlərə qarşı mübarizə aparmışdır. «Qaçaq Nəbi» mahnısı xalqın öz qəhrəmanına töhfəsidir. Qaçaq Nəbi haqqında «Azərbaycanfilm» kinostudiyasında «Atları yəhərləyin» adlı bədii film də çəkilmişdir.

## Musiqi lüğəti

**Uvertüra** – səhnə əsərinin giriş hissəsi

## SUAL VƏ TAPŞIRIQLAR

1. Mixail Qlinkanın hansı operaları var?
2. Mixail Qlinka yaradıcılığına bu ölkə və rəqslərdən hansı uyğun gəlir?

| Ölkələr | Rəqslər |
|---|---|
| İtaliya | Tarantella |
| Macarıstan | Çardaş |
| İspaniya | Xota |
| Yunanıstan | Sirtaki |
| Polşa | Mazurka |

3. «Qaçaq Nəbi» Azərbaycan xalq mahnısının xarakteri haqqında fikirlərinizi söyləyin.
4. «Xalq qəhrəmanları və onların musiqidə obrazları» haqqında danışın.

LAYİHƏ

# VALS AVROPA VƏ AZƏRBAYCAN MUSİQİSİNDƏ



Vals kütləvi bal rəqsidir. Bu janr öz kökünü Avstriya kəndlilərinin rəqsi kimi tanınan «Lendler»dən götürmüşdür. Vals ağır və cəld tempə malik olur. Vals üçün səciyyəvi ölçü 3/4-dür:





İohann Ştraus

Xanənin 1-ci çərək notu güclü, 2-ci və 3-cü çərək notları isə nisbətən zəif səslənir.

Avstriyanın paytaxtı Vyanada yaşayıb-yaratmış məşhur bəstəkar İohann Ştraus (1825—1899) simfonik orkestr üçün çoxlu sayda vals yazıb. Ona görə də İohann Ştrausu «valslar kralı» adlandırırlar.

Musiqi dinləyək

## İOHANN ŞTRAUS. «VYANA MEŞƏSİNİN NAĞILLARI»

Deyilənlərə görə, İohann Ştraus öz karetası ilə meşənin yanından keçərkən bülbüllərin cəh-cəhini eşidir və bu səsdən «Vyana meşəsinin nağılları» əsərində istifadə edir.

Dünya şöhrətli Azərbaycan bəstəkarı Qara Qarayevin «Yeddi gözəl» baletində də «Vals» var. Bəstəkar Avropa vals ölçüsünü xalq rəqslərimiz üçün səciyyəvi olan xüsusiyyətlərə uyğunlaşdıra bilmişdir.



Musiqi dinləyək

## QARA QARAYEVİN «YEDDİ GÖZƏL» BALETİNDƏN «VALS»

Bu «Vals» üçhissəli quruluşa malikdir. «Vals»ın birinci hissəsi «Çahargah» muğamının intonasiyaları əsasında yazılmışdır.

LAYİHƏ

# Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur



## ABŞERON

*Musiqisi Telman Hacıyevin,*
*sözləri Nəbi Xəzrinindir.*

I

Alar səni qoynuna,
Mehriban Xəzər.
İnci taxar boynuna,
Narın ləpələr.
Bağların cənnət təki,
Çiçək-çiçəkdir.
Buruqlar sinəndəki
Yanar ürəkdir.

**Nəqərat:**
Abşeron, ay Abşeron,
Ömür baharım.
Abşeron, ay Abşeron,
Odlar diyarım. (2)

II

İşıq olub saçılan,
Həyat kimisən.
Sən dənizə açılan,
Qanad kimisən.
Sevir səni oğul, qız,
Məğrurdur səsin.
Bizim doğma Bakımız,
Baş tacın sənin.
**Nəqərat:**



**Telman Hacıyev**

«Abşeron» mahnısı vals tempində səslənir.

## Musiqi lüğəti

**Vals** – 3/4 xanə ölçülü rəqs

## SUAL VƏ TAPŞIRIQLAR

1. İohann Ştraus hansı ölkənin bəstəkarıdır?
2. Vals janrını kim yaradıb?
3. Bu rəqslərdən hansı vals janrının əsasını təşkil edir?
a) Sirtaki c) Lendler b) Mazurka d) Polka
4. Azərbaycanda vals janrına müraciət edən bəstəkar kimdir?
5. «Yeddi gözəl» baletinin müəllifi kimdir?
6. «Vals Avropa və Azərbaycan musiqisində» mövzusunda şifahi təqdimat hazırlayın.

LAYİHƏ

## 22 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

# MARŞ AVROPA VƏ AZƏRBAYCAN MUSİQİSİNDƏ



Cüzeppe Verdi

Marş fransız sözü olub «addımlamaq», «irəli hərəkət etmək» deməkdir. Marş sərbəst addımları dəqiq ritmlə müşayiət edən bir musiqi janrıdır. Marşlar 2/4 və 4/4 xanə ölçüsünə malik olur, hərbi və idman paradlarında, nümayişlərdə, matəm mərasimlərində ifa edilir.

Məşhur inqilabi mahnılardan «Marselyeza», «Varşavyanka», «İnternasional» və digərləri məhz marş tempindədir.

Dahi italyan bəstəkarı Cüzeppe Verdi məşhur «Aida» operasında təntənəli bir «Marş» yaratmışdır. Simfonik orkestr tərəfindən ifa olunan bu marşda əsas mövzu truba musiqi alətində səslənir.



LAYİHƏ

## CÜZEPPE VERDİNİN «AİDA» OPERASINDAN «MARŞ»

«Heyratı», «Qarabağ şikəstəsi» və s. kimi zərbi-muğamlar marş tempində səslənir.

«Şur» muğamının «Simayi-Şəms» rəngi də marş xarakterlidir. Azərbaycanda «Şur» muğamının məşhur ifaçısı xanəndə Yavər Kələntərli olmuşdur.



Yavər Kələntərli

Mahnı öyrənək

## DƏNİZ NEFTÇİLƏRİNİN MAHNISI

*Musiqisi Qara Qarayevin,*
*sözləri Mixail Svetlovundur.*

I

Mərdlikdən verir xəbər,
Səsi nəğməmizin.
İrəli gedir Bakı,
İrəli gedir Bakı,
Qoynuna dənizin.

**Nəqərat:**

Bakı, sən ucalt neft buruqlarını,
Bəzə hər yanı sərvətinlə.
Hər bir bakılının vurur ürəyi,
Sənin saf məhəbbətinlə.

II

Dalğalıdır hər tərəf,
Görünmür neftdən iz.
Biz onu su altından,
Biz onu su altından,
Taparıq şübhəsiz.

**Nəqərat:**



## Musiqi lüğəti

**Marş** – təntənəli, aydın ritmli musiqi əsəri
**«Heyratı»** – marş xarakterli Azərbaycan zərbi-muğamı
**«Qarabağ şikəstəsi»** – marş xarakterli Azərbaycan zərbi-muğamı

## SUAL VƏ TAPŞIRIQLAR

1. Marş nədir?
2. Hansı Azərbaycan xalq musiqi nümunələri marş xarakterlidir?
3. «Aida» operasındakı «Marş»da əsas mövzu hansı alətlə səslənir?
4. Cavanşir Quliyevin «Əsgər marşı» mahnısını dinləyin. Mahnıda nə haqqında danışılır?

YouTube üzərindən axtarış üçün açar sözlər: marş, «Əsgər marşı», Cavanşir Quliyev

LAYİHƏ

## 23 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

# QARA QARAYEV VƏ AFRİKA QARADƏRİLİLƏRİNİN MUSİQİSİ


Qara Qarayev


Piter Abrahams

Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev «İldırımlı yollarla» baletini 1958-ci ildə yazmışdır. Balet cənubi Afrika yazıçısı Piter Abrahamsın eyniadlı povesti əsasında yazılıb.

Gənc qaradərili oğlan Lenni Svars Keyptaun universitetini bitirib vətənə qayıdır. O, vətənin müstəqilliyi uğrunda mübarizəyə qalxır, xalq ona qoşulur.

«İldırımlı yollarla» baletindən «Qaralar rəqsi» əvvəlcə Afrika zərb alətlərində, sonra isə pikkolo və iki fleyta vasitəsilə ifa olunur.

Musiqi dinləyək


Afrika qaradərililərinin rəqsi

### QARA QARAYEVİN «İLDIRIMLI YOLLARLA» BALETİNDƏN «QARALAR RƏQSİ»

Balet – italyan dilində «rəqs» deməkdir. Balet musiqili-xoreoqrafik səhnə əsəridir. Baletdə musiqi rəqslərlə, dramatik hərəkətlərlə və təsviri incəsənət elementləri ilə vəhdət təşkil edir.


«İldırımlı yollarla» baletindən səhnə

LAYİHƏ

# Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur



Fleyta

«Qaralar rəqsi»nin melodiyasını pikkolo fleyta, yəni zil fleyta, onun müşayiətini isə iki fleyta ifa edir.



Pikkolo fleyta

Mahnı öyrənək

## QARABAĞ ŞİKƏSTƏSİ

**(Azərbaycan xalq zərbi-muğamı)**

*Not yazısı Üzeyir Hacıbəylinindir.*

I

Deyir ey!
Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qürbətdə olanın,
Ürəyində yağ olmaz.

II

Deyir ey!
Əzizinəm, kimi gözlər,
Tar çalan simi gözlər.
Qaşların tək qaş olmaz,
Gözlərin kimi gözlər.

III

Deyir ey!
Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.



«Xarıbülbül» ansamblı

## Musiqi lüğəti

**Balet** – rəqs və mimik hərəkətlərdən ibarət teatr tamaşası
**Fleyta** – nəfəslə çalınan zil səsli Avropa musiqi aləti

## SUAL VƏ TAPŞIRIQLAR

1. «İldırımlı yollarla» baleti hansı yazıçının əsəri əsasında yazılıb?
2. «İldırımlı yollarla» baletinin qısa məzmunu nədir?
3. «Qaralar rəqsi»ndə hansı nəfəs alətlərindən istifadə edilir?
4. Qara Qarayevin daha hansı əsərlərini tanıyırsınız?
5. «Qara Qarayev və Afrika qaradərililərinin musiqisi» mövzusunda şifahi təqdimat hazırlayın.

LAYİHƏ

## 24 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

# PYOTR İLİÇ ÇAYKOVSKİ VƏ DÜNYA XALQLARININ MUSİQİSİ



Pyotr Çaykovski

Dahi rus bəstəkarı Pyotr İliç Çaykovski bir sıra opera və baletlərin, simfoniyaların, müxtəlif janrlı simfonik əsərlərin, çoxlu sayda romans və mahnıların, fortepiano əsərlərinin (o cümlədən uşaqlar üçün) müəllifidir. Bu əsərlərində bəstəkar rus təbiətini, əhvali-ruhiyyəsini, həyatını təsvir edir. Pyotr Çaykovski digər xalqların mahnı və rəqslərinə də müraciət edir. Onun IV simfoniyasında «Çöldə ağcaqayın ağacı» adlı rus xalq mahnısının motivləri var. Bəstəkar həm də üç baletin – «Qu gölü», «Yatmış gözəl» və «Şelkunçik» («Qozsındıran») əsərlərinin müəllifidir.

«Şelkunçik» baleti alman şairi və yazıçısı Ernest Hofmanın eyniadlı nağılı əsasında yazılmışdır. Sonradan bu mövzu Sankt-Peterburq baletmeysteri Marius Petipa tərəfindən balet librettosu kimi işlənmişdir.

Pyotr Çaykovski bu əsərdə rus musiqisi ilə yanaşı, ispan, ərəb, Çin xalq mahnı

Musiqi dinləyək

### «ŞELKUNÇİK» BALETİNDƏN «İSPAN RƏQSİ»



İspan rəqsi



Çin rəqsi

«Şelkunçik» baletindəki «İspan rəqsi» ispan xalqına məxsus olan keyfiyyətləri musiqi dili vasitəsilə çox gözəl çatdırır. Bu rəqsin əsas melodiyası Avropa mis musiqi aləti olan trubada səslənir.

Bəstəkar baletdə «Çin rəqsi», rus rəqsi «Trepak» və «Ərəb rəqsi» kimi nümunələr də yaratmışdır.

LAYİHƏ

## Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

# 24

### GÜNƏŞ

*Musiqisi Məryəm Əlibəylinin,*
*sözləri Sevinc Nuruqızınındır.*

I

Pəncərədən boylanıb
Günəş baxdı gözümə.
Tez yumdum gözlərimi
Heç baxmadım üzünə.

**Nəqərat:**
Parlaq günəş, al günəş,
Getmə, göydə qal, günəş.

II

Günəş yaman utandı
Qıpqırmızı qızardı.
Getməyə hazırlaşdı
Şəfəqləri azaldı.

**Nəqərat:**
Parlaq günəş, al günəş,
Getmə, göydə qal, günəş.

III

Neyləyim, işığından,
Gözlərim bərk qamaşdı.
Mən gözümü açınca
Günəş səmadan qaçdı.

**Nəqərat:**
Parlaq günəş, al günəş,
Getmə, göydə qal, günəş.

YouTube üzərindən axtarış üçün açar sözlər: «Günəş» mahnısı

### NOVRUZGÜLÜ

**(Azərbaycan xalq rəqsi)**



«Novruzgülü» Azərbaycan xalq rəqsinin adı baharın müjdəsini gətirən novruzgülü çiçəyinin adından götürülüb. Rəqs 6/8 xanə ölçüsündə və alleqretto (canlı) tempində səslənir.

Novruz «Yeni gün» deməkdir. Bu bayram Azərbaycan xalqının milli bayramıdır. Novruz mart ayının 21-də baharın gəlişi ilə başlanır. Həmin gün gecə və gündüz bərabərləşir. Novruz bayramı ərəfəsində su, od, külək və torpaq çərşənbələri xüsusi təntənə ilə qeyd olunur. Novruzu bəzi Şərq xalqları da bayram edir.

«Novruzu» rəqsi də Novruz bayramı şənliklərində ifa olunan milli rəqslərimizdəndir.

## Musiqi lüğəti

**Truba** – nəfəsli mis musiqi aləti
**«Novruzgülü»** – Azərbaycan xalq rəqsi

## SUAL VƏ TAPŞIRIQLAR

1. Pyotr Çaykovskinin hansı əsərlərini tanıyırsınız?
2. «Şelkunçik» baletinin müəllifi kimdir?
3. «Şelkunçik» baletində hansı xalqların musiqi nümunələrindən istifadə olunmuşdur?
4. «Günəş» mahnısında şair günəşi hansı əlamətləri ilə təsvir edir?
5. «Novruzgülü» rəqsini dinləyin. Aramla ifa olunan sakit, həzin melodiya haqqında təəssüratlarınızı dostlarınızla bölüşün.

YouTube üzərindən axtarış üçün açar sözlər: Novruz bayramı, «Novruzgülü» rəqsi

LAYİHƏ

## 25 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

# NOVRUZ BAYRAMI VƏ MUSİQİ



Azərbaycanda Novruz bayramı

Novruzda evlər və həyətləri təmizləyir, şəkərbura, paxlava, qoğal bişirir, yumurta boyayır, səməni qoyurlar. Qonşu rus xalqı da çox qədim zamanlardan yazın gəlişi ilə əlaqədar «Maslenitsa» adlı bayram keçirir. Rus bəstəkarı Nikolay Rimski-Korsakov «Qar qız» operasında «Maslenitsa» bayramını çox gözəl mahnı və rəqslərlə təsvir etmişdir.



«Qar qız» operasından «Maslenitsa»



Mahnı öyrənək

### BAYRAM AXŞAMLARINDA

*Musiqisi Ramiz Mirişlinin,*
*sözləri Fikrət Qocanındır.*

I

Yollar əlvan boyanar,
Evlərə arzu yağar.
Gözlərə sevinc qonar,
Bayram axşamlarında.

**Nəqərat:**
Nəğmə olar dalğalar,
Qış dönüb olar bahar.
Göydən məhəbbət yağar,
Bayram axşamlarında.

II

Görməzsən yalqızları,
Al geyər el qızları.
Lalə kimi qızarar,
Bayram axşamlarında.
**Nəqərat:**

III

Hər tərəf işıq olar,
Başqa yaraşıq olar.
Göy yerə aşiq olar,
Bayram axşamlarında.
**Nəqərat:**

LAYİHƏ

Musiqi dinləyək

## «NƏLBƏKİ» AZƏRBAYCAN XALQ RƏQSİ

Azərbaycanın qədim xalq rəqslərindən biri də «Nəlbəki» rəqsidir. Bu rəqs minor ladında, 6/8 xanə ölçüsündə, şux, bayram əhvali-ruhiyyəlidir. Ona görə də «Nəlbəki» rəqsi bütün el bayramlarında ifa edilir. «Nəlbəki» Azərbaycan xalq rəqsini qızlar əllərində nəlbəki ilə oynayırlar.



**«Nəlbəki» Azərbaycan xalq rəqsi**

### Musiqi lüğəti

**«Nəlbəki»** – Azərbaycan xalq rəqsi
**«Maslenitsa»** – rus xalqının bahar bayramı

## SUAL VƏ TAPŞIRIQLAR

1. Nikolay Rimski-Korsakovun hansı əsərlərini tanıyırsınız?
2. «Nəlbəki» rəqsi haqqında nə bilirsiniz?
3. Youtube üzərindən axtarış verin. «Bayram axşamlarında» mahnısı ən çox kimin ifasında səslənir?

| İfaçılar | Cavab |
|---|---|
| Zeynəb Xanlarova | bəli/xeyr |
| İlhamə Quliyeva | bəli/xeyr |

| İfaçılar | Cavab |
|---|---|
| Elmira Rəhimova | bəli/xeyr |
| Flora Kərimova | bəli/xeyr |

4. «Maslenitsa» bayramı haqqında nə deyə bilərsiniz?
5. «Novruz bayramı və musiqi» mövzusunda şifahi təqdimat hazırlayın.

LAYİHƏ

# 25 Dünya xalqlarının musiqisi arasında keçilməz sərhədlər yoxdur

## ŞƏHRİZAD




## İSPAN RƏQSLƏRİ




## AFRİKA RƏQSLƏRİ




## NOVRUZ VƏ MASLENİTSA




LAYİHƏ

# IV bölmə



# BƏSTƏKAR, İFAÇI, DİNLƏYİCİ

LAYİHƏ

## 26 Bəstəkar, ifaçı, dinləyici

# BƏSTƏKAR VƏ MUSİQİ



Volfqanq Amadey Motsart

Musiqi necə yaranır və sonradan geniş kütlələr arasında necə yayılır? Əlbəttə ki, musiqi nümunəsi, ilk növbədə, bəstəkarlar tərəfindən yaradılır. Lakin bəstəkar əgər mahnı, yaxud rəqs yazıbsa və onu yalnız özündə saxlayırsa, həmin musiqinin mövcudluğu haqqında bəstəkardan başqa heç kim bilmir.

Deməli, bəstəkarın yazdığı əsər mütləq ifaçı tərəfindən səsləndirilməlidir. İfaçı tərəfindən ifa olunan musiqi mütləq dinləyicilər qarşısında ifa edilməlidir. Yalnız bu halda musiqinin mövcudluğundan danışmaq olar. Bəstəkar-ifaçı-dinləyici üçlüyünün əlaqəsini belə göstərmək olar:



Bəstəkar



İfaçı



Dinləyicilər

Dahi Avstriya bəstəkarı Volfqanq Amadey Motsart 50 simfoniyanın, 19 operanın, müxtəlif musiqi alətləri üçün sonataların müəllifidir. Volfqanq Amadey Motsart 4 yaşından başlayaraq bir sıra xarici ölkələrin konsert salonlarında konsertlər verirdi. Sonralar gənc bəstəkar öz sonatalarını, fortepiano və simfonik orkestr üçün yazdığı konsertləri də ifa edirdi. Onun «40-cı simfoniyası» dinləyicilər tərəfindən xüsusilə sevilir.

LAYİHƏ

# 26 Bəstəkar, ifaçı, dinləyici

Musiqi dinləyək

## VOLFQANQ AMADEY MOTSART. «40-cı SİMFONİYA»nın I HİSSƏSİNDƏN BİR PARÇA

Sinifdə simfoniyanı dinləyən uşaqlar artıq dinləyici olurlar.

Mahnı öyrənək

## GÖZƏL QUBA

*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*

I

Bir yanın Şahdağı, bir yanın Xəzər,
Meyvəli bağların ormana bənzər,
Səhər şəfəqləri hüsnünü bəzər.

**Nəqərat:**
Sən belə deyildin əzəl, ay Quba,
Nə qədər gözəlsən, gözəl, ay Quba.

II

Əyir budaqları bağların barı,
Şirin almaların al, qızıl, sarı,
Bahara bənzəyir payız ayları.
**Nəqərat:**



**Quba** – Azərbaycan Respublikasının şimalında yerləşir. Gözəl təbiəti, dağları, çayları, meyvə bağları, xüsusilə ağ alması ilə tanınır. Hətta xalqımız Quba almasının şərəfinə «Qubanın ağ alması» adlı mahnı da yaratmışdır. «Gözəl Quba» şən, 6/8 xanə ölçülü, rəqs xarakterli mahnıdır. Mahnıda Qubanın əsrarəngiz təbiəti vəsf olunur. Mahnının melodiyası sadə və qəlboxşayandır.

«Gözəl Quba» mahnısı mi major tonallığında yazılmış və «Segah» muğamının intonasiyaları üzərində qurulmuşdur.

## Musiqi lüğəti

**Bəstəkar** – musiqi əsərləri yaradan şəxs
**İfaçı** – musiqi əsərini səsləndirən musiqiçi
**Dinləyici** – musiqi əsərini dinləyən insan

LAYİHƏ

## SUAL VƏ TAPŞIRIQLAR

1. Bəstəkar kimdir?
2. İfaçının musiqi əsərinin həyatında rolu nədən ibarətdir?
3. Dinləyici nəyə görə lazımdır?
4. Volfqanq Amadey Motsart haqqında nə bilirsiniz?
5. «Bəstəkar və musiqi» mövzusunda şifahi təqdimat hazırlayın.

## 27 Bəstəkar, ifaçı, dinləyici

# BƏSTƏKAR VƏ MAHNI


Tofiq Quliyev

Dünya şöhrətli Azərbaycan bəstəkarı Tofiq Quliyev Azərbaycanda ilk estrada mahnılarının müəllifidir. Bəstəkar, eyni zamanda «Bəxtiyar», «Ögey ana», «Nəsimi», «Qayınana» və s. bədii filmə musiqi yazmışdır.

Bəstəkar Tofiq Quliyev uşaqlar üçün də fortepiano əsərləri və mahnılar bəstələmişdir. Onun «Cəmilənin albomu» adlı fortepiano pyesləri silsiləsində kiçikhəcmli əsərlər yer almışdır.

Musiqi dinləyək

## «CƏMİLƏNİN ALBOMU» FORTEPİANO PYESLƏRİ SİLSİLƏSİNDƏN «QAYTAĞI»

«Qaytağı» cəld templi kişi rəqsidir. 4/4 xanə ölçülü bu əsəri ifa etmək musiqiçidən böyük məharət tələb edir. Azərbaycanda bu əsərin ən mahir ifaçısı Xalq artisti, pianoçu Fərhad Bədəlbəylidir.

Mahnı öyrənək

## «ÖGEY ANA» FİLMİNDƏN «KƏNDİMİZ» MAHNISI

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Zeynal Cabbarzadənindir.*

I

Yurdum, yuvam, ay əziz kəndimiz,
Azad, abad, ay təmiz kəndimiz,
Gözəl olur səndə yay, qış, bahar!

**Nəqərat:**
Yaşıl meşəli, ömrü nəşəli,
Sevirəm səni, gözəl kəndimiz.
Qarlı dağların, barlı bağların,
Sevirəm səni, gözəl kəndimiz.

II

Quşlar, quşlar nə gözəl oxuyur,
Bəh-bəh, bəh-bəh, nə gözəl oxuyur,
Yaşıl, əlvan, sarı çiçəkləri.
**Nəqərat:**

**Bu mahnı «Bayatı-Şiraz» muğamına əsaslanır.**

### Musiqi lüğəti

**«Qaytağı»** – Azərbaycan xalq rəqsi
**Pyes** – müəyyən bir musiqi aləti üçün yazılmış kiçikhəcmli əsər

### SUAL VƏ TAPŞIRIQLAR

1. Tofiq Quliyev kimdir?
2. Tofiq Quliyevin hansı əsərlərini tanıyırsınız?
3. «Kəndimiz» mahnısının müəllifləri kimdir?
4. «Ögey ana» filmindən «Kəndimiz» mahnısını dinləyin. Mahnı kimin ifasında səslənir?
YouTube üzərindən axtarış üçün açar sözlər: «Ögey ana» bədii filmi, «Kəndimiz» mahnısı
5. «Cəmilənin albomu» fortepiano pyesləri silsiləsinin müəllifi kimdir?
6. «Bəstəkar və mahnı» mövzusunda şifahi təqdimat hazırlayın.

LAYİHƏ

# BƏSTƏKAR VƏ ROMANS

Romans – səs və instrumental müşayiət üçün yazılmış əsərdir. Çox zaman fortepiano musiqi alətinin müşayiəti ilə ifa olunur. Romans üçün seçilmiş mətnlərin məzmunu lirik, satirik, yumoristik və təntənəli ola bilər. Azərbaycanda romans janrının əsasını Asəf Zeynallı qoyub. O, «Ölkəm», «Sual», «Ceyran», «Çadra», «Sərhədçi» kimi romansların müəllifidir. «Ölkəm» və «Sual» romanslarının ilk ifaçısı Bülbül olmuşdur. Cəfər Cabbarlının sözlərinə bəstələnən «Ölkəm» romansında bəstəkar «Şur» muğamının intonasiyalarından istifadə etmişdir. Romans 3/4 xanə ölçülüdür, moderato tempində və sol minor tonallığındadır.


Bülbül

Musiqi dinləyək

## «ÖLKƏM» ROMANSI

Mahnı öyrənək

## SƏHƏR NƏĞMƏSİ

*Musiqisi Əşrəf Abbasovun, sözləri Yusif Əzimzadənindir.*

I

Gözəl səhər, gözəl səhər,
Ey hər şeydən əzəl səhər.
Apar bizi uzaqlara,
Bir əbədi şən bahara.
**Nəqərat:**

II

Ötən bülbül, ötən bülbül,
Ey kamına yetən bülbül.
Səninkidir bu gül-çiçək,
Onlardan öz ətrini çək.
**Nəqərat:**

**Nəqərat:**
Qoca bağban, qoca bağban,
Ey şöhrəti uca, bağban.
Su ver bizə sərin-sərin,
Pənahısan çiçəklərin.

## Musiqi lüğəti

**Romans** – kiçik vokal əsəri

## SUAL VƏ TAPŞIRIQLAR

1. Azərbaycanda romans janrının ilk yaradıcısı kimdir?
2. Asəf Zeynallının hansı romanslarını tanıyırsınız?
3. Klassik Avropa və rus bəstəkarlarından kim romans janrında işləyib?
4. «Bəstəkar və romans» mövzusunda şifahi təqdimat hazırlayın.

LAYİHƏ

# BƏSTƏKAR VƏ OPERETTA



Üzeyir Hacıbəyli

Operetta (musiqili komediya) – komediya məzmunlu, vokal-rəqs səhnələri ilə zəngin musiqili səhnə əsəridir. Simfonik orkestrin müşayiəti ilə ifa edilir. Operettanın musiqisindən əvvəl librettosu yazılır. Libretto operetta üçün yazılan ədəbi mətndir.

Azərbaycanda XX əsrin əvvəllərində ilk operettaların müəllifi dahi Üzeyir Hacıbəyli olmuşdur. Bunlar «Ər və arvad», «O olmasın, bu olsun» və «Arşın mal alan» operettalarıdır. Hər üç operettanın libretto müəllifi bəstəkar özüdür.

1945-ci ildə «Arşın mal alan» operettası əsasında Cəfər Cabbarlı adına Azərbaycan kinostudiyasında bədii film çəkilib. Üzeyir Hacıbəylinin operettaları mahnı, rəqs və duetlərlə yanaşı, ariyalarla da zəngindir. **Ariya** – solo vokal nümunəsidir. Ariyada, adətən, qəhrəmanın xarakterinin başlıca cəhətləri açılır.

Musiqi dinləyək

## «ARŞIN MAL ALAN» OPERETTASINDAN «MÜQƏDDİMƏ»



Müqəddimə – operettada birinci səslənən musiqidir. Onu uvertüra da adlandırırlar. Adətən, müqəddimədə əsərin məzmunu, xarakteri qısa şəkildə öz musiqili əksini tapır.

«Arşın mal alan» operettasının «Müqəddimə»si iki hissədən ibarətdir. Şən rəqs xarakterli birinci hissə 6/8 xanə ölçüsündə, cəld tempdə səslənir. İkinci hissə isə 3/4 xanə ölçüsündədir.

Operettada simfonik orkestr, xor, solistlər və rəqs qrupu kollektivləri iştirak edir.

LAYİHƏ

Mahnı öyrənək

## VƏTƏN OĞLU
**(Azərbaycan aşıq mahnısı)**

Vətən oğlu öz canını,
El uğrunda qurban elər.
Aşıq coşar məclislərdə,
Bu şöhrəti dastan elər.
Ay aman, ay aman,
Dastan elər, dastan elər.

Çala bilməz sar tərlanı,
Bu elləri yaxşı tanı.
Kəc baxana gen dünyanı,
Bizim ordu zindan elər.
Ay aman, ay aman,
Zindan elər, zindan elər.

Çox güvənmə gəl özünə,
Mil salaram cüt gözünə.
Bir damcı qan əvəzinə,
Qoç Koroğlu min qan elər.
Ay aman, ay aman,
Min qan elər, min qan elər...



**Azərbaycanın Milli Qəhrəmanı
Mübariz İbrahimov**

## Musiqi lüğəti

**«Arşın mal alan»** – Üzeyir Hacıbəylinin operettası
**Libretto** – musiqili səhnə əsəri üçün ədəbi mətn

## SUAL VƏ TAPŞIRIQLAR

1. Operetta nədir?
2. Operetta harada yaranmışdır?
3. Azərbaycanda operetta janrının yaradıcısı kim olub?
4. Üzeyir Hacıbəylinin hansı operettaları var?
5. Operetta janrı haqqında fikirlərinizi söyləyin.

LAYİHƏ

# BƏSTƏKAR VƏ OPERA



**Opera** – musiqi-dram incəsənəti janrıdır. Opera italyan dilindən tərcümədə «iş, əmək, məşğuliyyət» deməkdir. İlk operaların müəllifləri italyan bəstəkarları Yakopo Peri və Klaudio Monteverdidir. XVIII əsrdə Volfqanq Amadey Motsart, Lüdviq van Bethoven gözəl opera nümunələri yaratmışlar.

Azərbaycanda ilk opera 1908-ci ildə Üzeyir Hacıbəyli tərəfindən yazılmış «Leyli və Məcnun» oldu. Bu opera, həmçinin Şərqdə ilk opera və muğam-opera idi. Üzeyir Hacıbəylinin 1937-ci ildə bitirdiyi «Koroğlu» operası elə həmin ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulur.

«Koroğlu» operasının librettosunu Məmməd Səid Ordubadi yazıb. Operada ariyalarla bərabər, kiçikhəcmli ariyetta və monoloqlardan, duet, trio, kvartet, kvintet kimi vokal ansambllardan istifadə olunur. Bütün bunları simfonik orkestr müşayiət edir.

Musiqi dinləyək

## ÜZEYİR HACIBƏYLİ. «KOROĞLU» OPERASININ III PƏRDƏSİNDƏN «ÇƏNLİBEL XORU»

«Çənlibel xoru» xaraktercə Azərbaycan qəhrəmanlıq rəqsi «Cəngi»yə bənzəyir. 2/4 xanə ölçülü və marş tempindədir.



LAYİHƏ

Mahnı öyrənək

## DƏNİZ

*Musiqisi Cahangir Cahangirovun,*
*sözləri Aslan Aslanovundur.*

**I**

Dəniz, dəniz, göy dəniz,
Hava təmiz, göy təmiz.
Qol atdıqca göy dalğalar,
Bizi atıb yırğalar.

**Nəqərat:**
Dalğalar sərindir, sərindir,
Çox üzmərik dərindir, dərindir.
Dalğalar sərindir, göy sular sərindir,
Qol atdıqca göy dalğalar,
Bizi atıb yırğalar.

II

Dəniz, dəniz, ay dəniz,
Çox sevirik səni biz.
Çimdikcə qucağında,
Bərkiyir bədənimiz.
**Nəqərat:**

III

Dəniz, dəniz, göy dəniz,
Hava təmiz, göy təmiz.
İndi bizi gözləyir,
Məktəbli düşərgəmiz.
**Nəqərat:**



**Cahangir Cahangirov**

## Musiqi lüğəti

**Ariya** – müşayiətli solo vokal janrı
**Ariyetta** – kiçik ariya

## SUAL VƏ TAPŞIRIQLAR

1. Opera nədir?
2. İlk operalar harada və hansı bəstəkarlar tərəfindən yazılıb?
3. İlk Azərbaycan operası nə vaxt və kim tərəfindən yazılıb?
4. «Koroğlu» operasının müəlliflərini seçin:

| Bəstəkar | Libretto müəllifi | Cavab |
|---|---|---|
| Cahangir Cahangirov | Aslan Aslanov | bəli/xeyr |
| Üzeyir Hacıbəyli | Məmməd Səid Ordubadi | bəli/xeyr |
| Ceyhun Hacıbəyli | Mirmehdi Seyidzadə | bəli/xeyr |
| Qara Qarayev | Səməd Vurğun | bəli/xeyr |
| Emin Sabitoğlu | Fikrət Qoca | bəli/xeyr |

5. Opera janrı haqqında fikirlərinizi söyləyin.

LAYİHƏ

# BƏSTƏKAR VƏ SİMFONİYA



Simfoniya – orkestr üçün nəzərdə tutulmuş mürəkkəb formalı əsərdir. Yunan dilindən tərcümədə «ahəng» deməkdir. İlk simfoniyaları Avropada Yozef Haydn, Volfqanq Motsart, Lüdviq Bethoven, Rusiyada Pyotr Çaykovski, Sergey Prokofyev, Dmitri Şostakoviç və digərləri yazıb. Azərbaycanda Qara Qarayev, Fikrət Əmirov, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Arif Məlikov, Vasif Adıgözəlov və başqa bəstəkarlar simfoniya janrında əsərlər yazmışlar.

Fikrət Əmirovun simli alətlər orkestri üçün dördhissəli «Nizami» simfoniyası bütün dünyada böyük müvəffəqiyyətlə səslənir.

Simli alətlər orkestri Avropa simli alətlərindən təşkil olunub. Bu kollektivdə 5 Avropa musiqi alətləri qrupu iştirak edir – I skripkalar (violino), II skripkalar (violino), altlar (viola), violonçellər və kontrabaslar. Orkestrdə 30 nəfərdən (kiçik tərkib) 50 nəfərə qədər (böyük tərkib) musiqiçi ifa edə bilər.


I skripka


II skripka


Viola


Violonçel


Kontrabas

Musiqi dinləyək

## FİKRƏT ƏMİROVUN «NİZAMİ» SİMFONİYASINDAN 2-ci HİSSƏ



Dördhissəli «Nizami» simfoniyasının 2-ci hissəsi «Skerso» adlanır. «Skerso» – «kəskin xarakterli pyes» deməkdir. Skerso yumoristik, fantastik və s. ola bilər. Adətən, belə pyeslər rəqs xarakterli olub, 3/4 xanə ölçüsündə yazılır. Fikrət Əmirovun «Skerso»su isə vals-rəqs xarakterlidir və 3/8 xanə ölçüsündə səslənir.

LAYİHƏ

## BAHAR GƏLİR

Mahnı öyrənək

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Zeynal Cabbarzadənindir.*

I
Axar sular aşır, daşır,
Dağ, dərələr yaşıllaşır.
Sevincimiz həddən aşır,
Ay uşaqlar, xoş bahar gəlir.

II
Dağda çoban çalır tütək,
Ot otlayır qoyun, inək.
Əsir sərin-sərin külək,
Ay uşaqlar, xoş bahar gəlir.

III
Quşlar uçur qatar-qatar,
Çiçəklənir göy bağçalar.
Ay uşaqlar, ay uşaqlar,
Sevimli xoş bahar gəlir.



«Bahar gəlir» mahnısı 6/8 xanə ölçüsünə, orta sürətli tempə malikdir. Fa major tonallığındadır. «Rast» muğamı üzərində səslənən mahnıda bahar fəslinin gözəlliklərindən bəhs edilir.

## Musiqi lüğəti

**Simli alətlər orkestri** – yaylı simli alətlərdən ibarət musiqi ifaçılar qrupu

## SUAL VƏ TAPŞIRIQLAR

1. Simfoniya janrı haqqında nə bilirsiniz?
2. Avropada simfoniya janrının yaradıcıları kim olub?
3. Azərbaycanda simfoniya yazan hansı bəstəkarları tanıyırsınız?
4. «Nizami» simfoniyasını kim yazıb?
5. Simfoniya hansı orkestrin ifasında səslənir?

LAYİHƏ

# BƏSTƏKAR VƏ BALET



Arif Məlikov

**Balet** – musiqinin müşayiəti ilə icra edilən rəqs və ritmik hərəkətlərdən ibarət teatr tamaşasıdır. Baletdə rəqslərlə bərabər, eyni zamanda pantomim də var.

**Pantomim** – yalnız hərəkət və mimikadan ibarət aktyor oyunudur.

Baletin yaradılmasında bəstəkar, librettoçu, baletmeystr, tamaşanın quruluşçu rejissoru və rəssamı iştirak edirlər. Baletdə rəqslər solo və kütləvi şəkildə olur. Kütləvi rəqslər kordebalet, solo rəqsləri isə tək-tək balet artistləri tərəfindən həyata keçirilir. Pantomim səhnələri rəqslər arasında əlaqə yaradır və tamaşanın fasiləsiz inkişafına səbəb olur.

Azərbaycanda ilk balet Əfrasiyab Bədəlbəylinin yazdığı «Qız qalası» əsəridir.

Azərbaycanın Xalq artisti, bəstəkar Arif Məlikovun «Məhəbbət əfsanəsi» baleti dünya şöhrəti qazanmışdır. Bəstəkar bu baleti məşhur türk yazıçısı Nazim Hikmətin eyniadlı əsəri əsasında yazmışdır.



Nazim Hikmət

Musiqi dinləyək

# ARİF MƏLİKOVUN «MƏHƏBBƏT ƏFSANƏSİ» BALETİNDƏN «TÜRK QIZLARININ RƏQSİ»

«Türk qızlarının rəqsi» çox enerjili, mürəkkəb ritmik quruluşa malikdir. Onun xanə ölçüsü 9/8-dur.



«Məhəbbət əfsanəsi» baletindən «Türk qızlarının rəqsi»

LAYİHƏ

«Məhəbbət əfsanəsi» baletindən «Adajio»

Mahnı öyrənək



## ƏSGƏR MARŞI

*Musiqisi Cavanşir Quliyevin,*
*sözləri Əli Kamınindir.*

I

Vətən məni yetişdirib bu ellərə yolladı,
Bu torpağa qurban deyib, Allaha ismarladı.
Boş oturma, çalış, – dedi, – xidmət elə Vətənə!
Südüm sənə halal olmaz, sən baş əysən düşmənə».

**Nəqərat:**
Marş, irəli, hey! Marş irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, hey, dönməz geri,
Azərbaycan əsgəri!

II

Yastığımız Vətən daşı, yorğanımız qar olsun,
Biz bu yoldan dönər olsaq, namus bizə ar olsun.
Nə gözəldir ölmək bizə sevgili Vətən üçün,
Yanar ürək yurd eşqilə daima için-için.
**Nəqərat:**

«Əsgər marşı» 2/4 xanə ölçüsündə marş tempində səslənir. Onun dəqiq ritmi və sadə melodiyası var.

LAYİHƏ

### SUAL VƏ TAPŞIRIQLAR

1. Balet haqqında nə bilirsiniz?
2. Balet janrında yazan hansı Azərbaycan bəstəkarlarını tanıyırsınız?
3. «Məhəbbət əfsanəsi» baletini kim yazıb?
4. Balet janrı haqqında fikirlərinizi söyləyin.

# BƏSTƏKAR VƏ XALQ MUSİQİSİ

Azərbaycan bəstəkarları xalqın mahnı və rəqslərindən, aşıq musiqisindən, klassik muğamlarımızdan bəhrələnərək yeni əsərlər yazmışlar. Məsələn, Üzeyir Hacıbəyli «Çıxdı günəş» Azərbaycan xalq mahnısının melodiyasını dəyişmədən onun giriş hissəsini, eyni zamanda mahnının melodiyasına fortepiano aləti üçün müşayiət kimi işləmişdir. Mahnının girişi əvvəlcə «Moderato», 9 xanədən sonra «Alleqro» tempində yalnız fortepianoda səslənir. Daha sonra mahnının melodiyası müşayiəti ilə birlikdə «Andante qrave» tempində ifa olunur.

Mahnı öyrənək



## ÇIXDI GÜNƏŞ

*Not yazısı Üzeyir Hacıbəylinin,*
*sözləri Mirzə Ələkbər Sabirindir.*

Çıxdı günəş, doldu cahan nur ilə,
Cütçü sürür tarlada cüt şur ilə.

Cütçü batıb qan-tərə, yer şumlayır,
Şumladığı tarlasını tumlayır.

Olsa da artıq nə qədər zəhməti,
İşləməyə var o qədər qeyrəti.

Çünki bilir rahat əziyyətdədir,
Şad yaşamaq səydə, qeyrətdədir.

Musiqi dinləyək

## «LAÇIN» AZƏRBAYCAN XALQ MAHNISI

«Laçın» çox qədim Azərbaycan xalq mahnısıdır. «Bayatı-Şiraz» klassik muğamının intonasiyalarına əsaslanan bu mahnıdan Süleyman Ələsgərov eyniadlı simfonik muğamda təsnif kimi istifadə etmişdir. Bəstəkar Nazim Əliverdibəyov isə bu mahnını fortepiano aləti üçün işləmişdir.

LAYİHƏ

Mahnı öyrənək

## NAZİM ƏLİVERDİBƏYOV. «LAÇIN» FORTEPİANO PYESİ

3/4 xanə ölçüsündə, sol minor qammasında və «Bayatı-Şiraz» muğam intonasiyalarına əsaslanan «Laçın» fortepiano pyesində mahnının bəndinin melodiyası əvvəlcə sağ əldə, sonra isə sol əldə səslənir. Mahnının nəqəratı yenə əvvəldə olduğu kimi sağ əldə ifa olunur.

Bəstəkar Tofiq Quliyev XX əsrin 50-ci illərində 15 Azərbaycan xalq rəqsini fortepiano aləti üçün işləmişdir. Onlardan biri də «Darçını»dır.

Musiqi dinləyək

## TOFİQ QULİYEV. «DARÇINI» FORTEPİANO PYESİ

Bəstəkar bu pyesi yazarkən onun melodiyasını xalq rəqsində olduğu kimi saxlamış və sol əl ilə həmin melodiyaya müşayiət yaratmışdır.

Üzeyir Hacıbəyli «O olmasın, bu olsun» operettasında «Rüstəm bəylə Məşədi İbadın dueti» üçün məhz «Darçını» xalq rəqsinin melodiyasından istifadə etmişdir.

### Üzeyir Hacıbəyli. «O olmasın, bu olsun» operettasından «Rüstəm bəylə Məşədi İbadın dueti»





## Musiqi lüğəti

**«Laçın»** – Azərbaycan xalq mahnısı
**«Darçını»** – Azərbaycan xalq rəqsi

## SUAL VƏ TAPŞIRIQLAR

1. Hansı Azərbaycan xalq mahnıları ilə tanış olduq?
2. Tofiq Quliyev hansı Azərbaycan xalq rəqsini fortepiano aləti üçün işləyib?
3. Bəstəkar Nazim Əliverdibəyov hansı Azərbaycan xalq mahnısının motivləri əsasında fortepiano pyesi yazıb?
4. Xalq musiqisi janrı haqqında fikirlərinizi söyləyin.

LAYİHƏ

# KEÇİLMİŞ MÖVZULAR ÜZRƏ TƏKRAR

1. Sinif konsertinə hazırlıq
2. Öyrənilmiş terminlər bir daha yada salınır.

**Biz IV sinif «Musiqi» dərsliyinin də son səhifəsini çevirdik.**

**Sevimli yay gəlir. Günəş, gilavar və yosun ətirli yay. Daşlara çırpıla-çırpıla axan dağ çayının səsinə səs verin. Bir «Qaytağı» rəqsi oynayın çay daşlarının üstündə. Xəzərin mavi ləpələrinin qızılı qumlu sahillərdəki rəqsinə «Yallı»nızla qoşulun. Sübhçağı quşların şən nəğməsinə «Bayatı-Şiraz»la qatılın. Haradansa havalanan «Qarabağ şikəstəsi»ni dinləyin. Gülün, sevinin, sevincinizi ətrafdakılarla paylaşın. Öz qəlbinizin pıçıldadığı nəğməni oxuyun, könlünüz istəyəni ifa edin. Mavi dənizin qoynundan odlu şar kimi asılan Günəşi qarşılayın. Çəmənlərdə kəpənəklərlə ötüşün. Quşların gecə nəğməsini dinləyə-dinləyə şipşirin yuxuya gedin. Küləklər kimi sərhədsiz, gün işığı kimi maneəsiz, dəniz kimi hərəkətli olun. Bu arada xeyirxah və nəzakətli olmağı unutmadınız deyə düşünürəm. Xoş istirahətlər!**

LAYİHƏ



LAYİHƏ

**BURAXILIŞ MƏLUMATI**

**MUSİQİ 4**
Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün
Musiqi fənni üzrə
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Oqtay Məmmədağa oğlu Rəcəbov**<br>**Nazim Kazım oğlu Kazımov**<br>**Ofeliya Safa qızı İmanova** |
| Redaktor | **Sevinc Nuruqızı** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizayner | **Aqil Əmrahov** |
| Üz qabığı | **Təhmasib Mehdiyev** |
| Rəssam | **Gündüz Ağayev** |
| Korrektor | **Ülkər Şahmuradova** |

Dərslik Psixologiya Elmi-Tədqiqat İnstitutunun mütəxəssisi, psixologiya üzrə fəlsəfə doktoru Müşviq Mustafayev tərəfindən müvafiq parametrlər üzrə dəyərləndirilmişdir.

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019-024)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə
yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 8,2. Fiziki çap vərəqi 9,0.
Səhifə sayı 72. Formatı 57x82 1/8.
Ofset kağızı. Məktəb qarnituru. Ofset çapı.
Tiraj 158416. Pulsuz. Bakı–2019.

**«Aspoliqraf LTD» MMC**
Bakı, AZ 1052, F.Xoyski küç., 149

LAYİHƏ

**PULSUZ**

## Əziz məktəbli!

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!



LAYİHƏ